# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Müstəqil Azərbaycanın Ana Qanunu




10

№ 207 (7375)

SƏS

9 noyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Qürur mənbəyimiz Azərbaycan Bayrağı!



7

*Müstəqillik rəmzlərimizdən olan üçrəngli bayrağımız qürurumuz, varlığımızdır və Vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalandıqca var olacağıq.*

# Zəfərin 5 ili: qüdrətli Azərbaycan ordusunun şərəf və qürur PARADI!



2

## Zəfər paytaxtının vətənpərvər uşaqları!



6

## Nüvə şahmatı



11

## Tramp Rusiyanı Orta Asiyadan da qovur...



5

## Gecələr niyə daha çox düşünürük?



9

## Rəqəmsal depozitin hansı riskləri var?




16

# Zəfərin 5 ili: qüdrətli Azərbaycan ordusunun şərəf və qürur PARADI!














***Böyük Zəfərimizin 5-ci ildönümündə paytaxt Bakıda keçirilən möhtəşəm hərbi parad qüdrətli Azərbaycan ordusunun gücünü, qüdrətini, İkinci Vətən müharibəsindəki rəşadətini, göstərdiyi hünərin qürurunu yenidən yaşatdı xalqa. Bir-birini əvəzləyən hərbi birləşmələr, hərbi texnika və sursatlar, səf-səf düşülmüş zabit və əsgərlər həm də şərəf tariximizi yazanlardır.***

Hərbi parad 90-cı illərin Birinci Vətən müharibəsi ilə 2020-ci ilin İkinci Vətən müharibəsinin fərqini gözlər önündə canlandırır. O vaxt daha çox şəhid vermişdik. Həm də torpaqlarımız əlimizdən getmişdi. Müharibədə məğlub olmuşduq. Lakin 2020-ci ilin 44 günündə itkilərimiz 90-cı illərdən qat-qat az olsa da, biz qələbə çaldıq. Torpaqlarımızı yağı düşməndən geri aldıq. Bax, bütün bunlar müqayisəli şəkildə göz önündən keçdikcə, milli ordumuzun dünəni ilə bugününü də müqayisə edir, onun haradan haraya gəldiyindən bir daha söhbət açır.

"Bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün "Böyük Qayıdış" Proqramı icra edilir." Bu sözləri Prezident İlham Əliyev Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda çıxışı zamanı bildirib. "Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır", - deyən dövlətimizin başçısı bütün bu tarixi nailiyyətlər münasibətilə xalqımızı bir daha təbrik edib.

Dövlətimizin başçısı öz çıxışında bildirib ki, "Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək, bir çox ölkələr üçün, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik". Dövlətimizin başçısı vurğulayıb ki, bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. "Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik. Bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın-köçkün vəziyyətinə salınmışdı. Xalqımıza qarşı hərbi cinayətlərin, Xocalı soyqırımının törədildiyini, etnik təmizləmə siyasəti aparıldığını xatırladan dövlətimizin başçısı bildirib: "Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi". - deyə dövlətimizin başçısı əlavə edib. Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda Türkiyə Respubkiasının Prezidenti Rəcəb Tayyip Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şərif də çıxış ediblər.

## Müstəqilliyinin rəmzi, təminatçısı olan silahlı qüvvələr

Azərbaycanda nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılmışdır. Ulu öndərin uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, burada hazırlanan hərbçi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli milli ordusunun zabit heyəti ilə təmin olunmasında əhəmiyyətli rol oynamışdır.

Peşəkar milli ordunun yaradılmasına ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanmışdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmış, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul edilmişdir.

*Ardı Səh. 3*

# Zəfərin 5 ili: qüdrətli Azərbaycan ordusunun şərəf və qürur PARADI!



**Əvvəli-Səh-2**

Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşdirilməsi prosesinə isə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr yaradılaraq komplektləşdirilmişdir. Eyni zamanda, görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılmış, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edilmişdir. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulmasına diqqət yetirilmiş, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulmuşdur. Nəticədə, milli hərbi birləşmələrimiz sülhməramlı qismində dünyanın müxtəlif münaqişə zonalarında iştirak etmiş, fəaliyyəti yüksək qiymətləndirilmişdir.





### İqtisadi islahatlardan müasir Milli Orduya doğru...

Dahi şəxsiyyətin ordu quruculuğu sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə iqtisadiyyatının sürətli inkişafı, ilk növbədə, dövlətimiz üçün prioritet olan ordumuzun büdcəsinin artmasına, orduda müasir komplektləşdirmənin aparılmasına geniş imkanlar yaratmışdır. Nəticədə, silahlı qüvvələrimiz dünyanın ən müasir silah-sursatları, hərbi-texnoloji avadanlıqları ilə təmin olunmuş, şəxsi heyətin döyüş ruhu dəfələrlə yüksəldilmişdir.

Bu barədə dövlətimizin başçısı demişdir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

### 2003-də verilən vəd, 2020-də qazanılan Zəfər

Ölkə Prezidenti cənab İlham Əliyev hələ 2003-cü ildə andiçmə mərasimində çıxış edərkən demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Dövlətimizin başçısı illər öncə bu qətiyyətli fikirləri söyləyərkən, eyni zamanda ata vəsiyyətini də xatırlayır, güclü ordu ilə işğal altında olan torpaqlarımızın bir gün azad olunacağına böyük inamla baxırdı. Bütün bunları müzəffər Ali Baş Komandanımızın dəyərli çıxışlarından birində dinlədik: Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçübbiçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi.

Bəli, Vətən müharibəsinə kimi ötən müddətdə sadalanan vəzifələr yüksək səviyyədə həyata keçirildi. Ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər görüldü, silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranması reallaşdırıldı. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz işğal altında olan ərazilərimizin azad olunması üçün geniş hərbi əməliyyatlara başladı və 44 gün ərzində düşməni diz çökdürərək darmadağın etdi, ərazi bütövlüyümüz təmin olundu. Vətən müharibəsi silahlı qüvvələrimizin nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi. Bu savaş, eyni zamanda XXI əsrin ən sürətli, müasir və ədalətli müharibəsi kimi yaddaşlara həkk olundu.

### Birinci yerdə hərbi xərclər dayanırdı

Milli Ordumuzdan, onun gücündən, Qarabağda əldə etdiyi tarixi Zəfərdən söhbət açarkən Prezident cənab İlham Əliyevin İkinci Vətən müharibəsində əldə etdiyimiz qələbənin ikinci ildönümündə Şuşa şəhərində söylədiyi dəyərli fikirləri də xatırlamaq yerinə düşər. Dövlətimizin başçısı deyirdi: Əlbəttə, müharibədə uğur qazanmaq üçün biz çox önəmli layihələri icra etməli idik və etdik. Bu gün dünyanın və bizim bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs görsün bizim təşəbbüsümüzlə icra edilən layihələr həm ölkəmizə, həm də bizim tərəfdaşlarımıza nə qədər böyük fayda gətirib. Bizim təşəbbüsümüzlə nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin sayı onlarla ölçülür. Hələ indiki mərhələdə daha geniş vüsət alacaq və bütün bu ölkələr bizim təbii dostlarımızdır, müttəfiqlərimizdir. Eyni zamanda, bu layihələr bizə əlavə maliyyə imkanı yaratdı. Biz, ilk növbədə, bu maliyyə imkanlarını hərbi potensialın gücləndirilməsinə yönəltdik. Mənim prezidentlik dövrümdə əgər dövlət büdcəsinin xərclərinə nəzər salsaq, görərik ki, birinci yerdə hərbi xərclərdir, birinci yerdə. Halbuki ölkənin başqa ehtiyacları var. Bir milyona yaxın məcburi köçkünün də problemlərini biz həll edirdik, onları da biz yeni evlərlə təmin edirdik. Sosial problem, maaşlar, pensiyalar, bunları da biz artırmalı idik və artırırdıq. Daha çox artırmaq istəyirdik və istəyirik. Ancaq, ilk növbədə, orduya, ilk növbədə, Qələbəyə aparan yola daha böyük maliyyə dəstəyi verirdik. Bu gün də belədir. Gələn il üçün Azərbaycanın dövlət büdcəsi rekord həddə çatıb, o cümlədən hərbi xərclərə ayrılacaq vəsait də rekord həddə çatıb. Sual oluna bilər nə üçün, müharibə arxada qaldı, iki il keçib. Cavab çox sadədir. Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistanda müharibənin nəticələri ilə barışmaq istəməyən qüvvələr, dairələr baş qaldırır. Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına tam əməl etmir, öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb, Zəngəzur dəhlizini bizə təqdim etməyib, bizə qarşı vaxtaşırı hərbi təxribatlar törədir. Əlbəttə ki, biz hazırlıqlı olmalıyıq və biz hazırıq.

### Üzümüz ağ, alnımız açıqdır!

Bu gün hər bir azərbaycanlı mənsub olduğu ölkəsi, onun dövlət başçısı, müstəqilliyimiz, Zəfərimizlə qürur duyur. Bizlər 30 ilin şərəf-torpaqlarımızın işğal məsələsini arxada qoyduq. 30 ildəki ürək ağrılarımız, Qarabağın adı çəkiləndə başımızı yerə dikdiyimiz anlar geridə qaldı. Çünki torpaq şərəf, namus məsələsidir. Biz o məsələni kökündən həll etdik. Torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda ölkəmizin ərazi bütövlüyünü təmin etdik. Bütün bunlara xalqımızın həmrəyliyi, birliyi ilə, güclü ordumuzla, vətənpərvər gəncliyimizlə, torpağını canından artıq sevən insanlarımızla nail olduq. Biz torpaqlarımızı qarış-qarış geri aldıq.

Prezident cənab İlham Əliyev deyir: Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Hərbçilərimiz ölümə gedirdilər, "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişdi ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyalarda, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər.

Azad torpaqlarımızda sürətli quruculuq işləri aparılır. Böyük Qayıdış Prqoramı ilə artıq soydaşlarımız öz ata-baba yurdlarına qayıdır. Tezliklə onların hər birinin geri dönməsi üçün dövlətimiz Qarabağda böyük işlər həyata keçirir. Bütün bunlar isə Zəfərimiz üzərinə yeni bir Zəfər, qürur gətirir.

***Mətanət Məmmədova***

***P.S.*** Böyük Zəfərimizin 5-ci ildönümü münasibətilə keçirilən və 3 saatdan artıq davam edən hərbi paradla yenidən Zəfər hissini yaşadıq: qürur duyduq, şəhidlərimizi yad etdik, qəhrəmanlarımızı andıq, qazilərimizi xatırladıq. Bir sözlə, qələbənin əldə olunmasında əməyi, zəhməti olan hər kəs bu 3 saatda var idi.

Yaşasın Azərbaycan! Zəfərin mübarək, əziz xalqım!

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyaraq xatirəsini ehtiramla andı.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

# Bakıda Zəfər muzeyinin açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Zəfər abidəsinin önünə əklil qoydu, şəhidlərin xatirəsini ehtiramla andı. Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstələri düzdü. Sonra dövlətimizin başçısı və birinci xanım Zəfər muzeyinin açılışında iştirak etdilər.

Zəfər muzeyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş".

Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır.

Muzeyin girişində tarixi Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışından fikirlər əks olunur. Muzeyi əhatə edən divarda 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adı ehtiram əlaməti kimi həkk edilib. Divarboyu axan su daimi həyat mənbəyi kimi şəhidlərimizin qəhrəmanlıqları ilə ölümsüzlüyə qovuşduqlarını, hər zaman qəlbimizdə yaşadıqlarını simvolizə edir. Muzeyin ekspozisiya zallarında isə Qarabağda Vətən müharibəsinədək və Zəfər Günündən sonra həlak olmuş şəhidlərimizin adları var.

Muzeyin "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi" adlı birinci zalında Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağın təbii gözəlliyi, tarixi memarlıq baxımından zənginliyi təqdim edilir. Zalın divarındakı kitab instalyasiyalarında Ümummilli Lider Heydər Əliyevin bölgənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə dair geniş məlumatlar var.

Zalın mərkəzində yerləşən interaktiv kitablar isə Qarabağın təbiəti, ədəbi irsi, musiqisi və xalq sənəti ilə yaxından tanış olmağa imkan yaradır. Eyni zamanda, ziyarətçilərə Qarabağın dövlətçilik, hərb, ədəbiyyat və incəsənət sahələrində iz qoymuş görkəmli şəxsiyyətlərinə dair məlumatlar çatdırılır.





Zəfər muzeyinin "Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış" zalı Qarabağ münaqişəsinin ağrılı və unudulmaz səhifələrini əks etdirir. Burada münaqişənin xronologiyası, Ulu Öndərin və dövlətimizin başçısının apardıqları ardıcıl siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması, sülh prosesi barədə məlumatlar yer alıb. Zalda qaçqınlar və məcburi köçkünlər, münaqişə qurbanları, eləcə də işğal dövründə ermənilər tərəfindən dağıdılmış abidələr, məscidlər və milli irsə vurulan ziyan haqqında geniş məlumat təqdim olunur.

Qarabağda işğal dövründə dağıdılmış binaların, yerləyeksan edilmiş yaşayış yerlərinin taleyinə həsr olunan instalyasiya – viran qalmış ev və bu evin qalıqları altından baş qaldıran ağac isə həyatın yenidən dirçəlişinin rəmzidir.

"44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı" adlı üçüncü zal Azərbaycan torpaqlarının azadlığı uğrunda aparılan qəhrəmanlıq mübarizəsini əks etdirir. Zalın mərkəzindəki LED monitorlar süni intellektlə hazırlanmış videomateriallarla ziyarətçini 44 günlük döyüşlərin mərkəzinə aparır. Monitorlarda döyüş əməliyyatları, hərbi nailiyyətlər və Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı hərbi hücumları ilə bağlı materiallar təqdim olunur. Holoqrafik ekranlar isə müasir hərbi texnikanı 3D formatda nümayiş etdirir. İnteraktiv xəritələr işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən hərbi əməliyyatların mərhələlərini ardıcıllıqla göstərir. Bu zalda tarixi Qələbənin qazanılmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin qoşun növlərinin bayraqları, eyni zamanda, Silahlı Qüvvələrin xüsusi təyinatlılarının maketləri var. Həmçinin burada Azərbaycan Prezidentinin Vətən müharibəsi və Zəfərlə bağlı bir sıra fərman və sərəncamları nümayiş olunur.



"Şanlı Zəfər. Şuşanın azad olunması" adlı dördüncü zalda Azərbaycanın hərb tarixində xüsusi yer tutan, misilsiz taktiki bacarıqla həyata keçirilmiş əməliyyatı təqdim olunur. Vətən müharibəsi zamanı xüsusi təyinatlı döyüşçülər ağır artilleriyasız Şuşanı azad edərək böyük qəhrəmanlıq göstəriblər. Zalın mərkəzindəki Şuşa maketi döyüş meydanını əks etdirir, interaktiv monitorlar isə əməliyyatın gedişini və əsas taktiki məqamları ardıcıl izləməyə imkan yaradır. Digər monitorda şəhərin müharibə dövründə dağıdılmış abidələri təqdim edilir. Ekranda şanlı Zəfər yolunun emosional gedişi nümayiş olunur. Zəfər muzeyi, muzeyi əhatə edən Zəfər parkı, parkın girişindəki Zəfər tağı Azərbaycan tarixinə həkk olunmuş 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi, qəhrəman şəhidlərimizin əziz xatirəsini yaşadır, buraya gələn hər bir ziyarətçinin yaddaşında qürurverici bu tarix yenidən canlanır. Zəfər muzeyi noyabrın 9-dan ziyarətçilər üçün açıq olacaq.

# "8 Noyabr – Zəfər Günü"nün beşinci ildönümü Pirallahı rayonunda təntənə ilə qeyd edilib











***07 noyabr 2025-ci il tarixində Pirallahı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "8 Noyabr – Zəfər Günü"nün beşinci ildönümünə həsr olunmuş silsilə tədbirlər həyata keçirilib. SİA xəbər verir ki, noyabr ayının ilk günlərindən etibarən rayonun bayram əhval-ruhiyyəsində bəzədilməsi məqsədilə geniş hazırlıq işləri aparılıb. Gürgən qəsəbəsinin girişində, Qala divarlarının üzərində, mərkəzi yol boyunca, eləcə də əsas küçələrdə yerləşən binaların eyvanlarında dövlət bayraqları ucaldılıb.***

Bununla yanaşı, şəhidlərimizin şəkilləri əks olunmuş "Vətən uğrunda abidə kompleksi"nin ətrafında və Gürgən qəsəbə qəbiristanlığında yerləşən şəhid məzarlarının ərazilərində təmizlik və abadlıq işləri görülüb. 07 noyabr tarixində Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Emil Abosov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları, həmçinin bir sıra müəssisə rəhbərlərinin iştirakı ilə ağacəkmə aksiyası təşkil olunub. Aksiya çərçivəsində 200 ədəd ağac və gül kolları əkilib, abadlıq işləri aparılıb, ağacların dibləri yumşaldılıb və yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Daha sonra RİH başçısının rəhbərliyi ilə ağacəkmə aksiyasında da iştirak edən bir qrup şəxs "Vətən uğrunda abidə kompleksi"ni ziyarət ediblər. Burada şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, idarə müəssisə, təşkilat rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri də iştirak ediblər. Tədbir hərbi orkestr tərəfindən Azərbaycan Respublikasının Dövlət Himninin və sükut ifasının səsləndirilməsi ilə başlayıb. Ardınca RİH başçısı və digər iştirakçılar abidə önünə gül dəstələri qoyaraq şəhidlərin əziz xatirəsini ehtiramla yad ediblər.

Ziyarətdən sonra "Qələbə Salnaməsi: Zəfərin beş ili" adlı rəsmi tədbir keçirilib. Tədbirə qədər "4 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi" publik hüquqi şəxs tərəfindən rəsm sərgisi, Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2 nömrəli filialı tərəfindən isə kitab sərgisi təşkil olunub. RİH başçısı və qonaqlar sərgilərlə tanış olduqdan sonra tədbirə keçid ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, həmçinin mövzuya həsr olunmuş videoçarxın nümayişi ilə başlanıb.

Daha sonra çıxış edən RİH başçısı bildirib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə qazanılmış Böyük ZəfərAzərbaycan xalqının iradəsini, dövlətimizin qüdrətini və milli birliyimizin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdi. O vurğulayıb ki, beş il əvvəl əldə olunan bu tarixi qələbə təkcə hərbi sahədə deyil, siyasi, diplomatik və mənəvi müstəvidə də Azərbaycanı qalib dövlət kimi dünyaya tanıdıb. Vasif İmanov onu da qeyd edib ki, Azərbaycan bu gün regionda sülhün, sabitliyin və inkişafın əsas təminatçısına çevrilib. Cənab Prezident İlham Əliyevin 8 avqust 2025-ci il tarixində ABŞ-a rəsmi səfərizamanı imzalanan tarixi Bəyanat, sülh müqaviləsinin mətninin paraflanması, eləcə də beynəlxalq tribunalarda dövlətimizin başçısının səsləndirdiyi qətiyyətli bəyanatlar bir daha göstərdi ki, Azərbaycan artıq öz haqlı Zəfərini diplomatik müstəvidə də tam şəkildə təmin edib. Vasif İmanov çıxışının sonunda qeyd edib ki, Zəfər Günü hər bir azərbaycanlı üçün qürur və milli iftixar günüdür. Bu Zəfər bizə həm azadlığın, həm birliyin, həm də dövlətçilik əzminin qiymətini xatırladır.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev, "Səs" Media qrupunun rəhbəri Bəhruz Quliyev çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində erməni işğalçılarının tarixi torpaqlarımızdançıxarılmasının əhəmiyyətindən danışdılar. Diqqətə çatdırıldı ki, Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda Azərbaycan xalqı öz varlığını, milli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi.

YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov öz çıxışında qeyd edib ki, 8 Noyabr – Zəfər Günü Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun göstərdiyi igidlik və xalqımızın dəmir iradəsi nəticəsində 30 ilə yaxın işğal altında qalmış torpaqlarımız azad olunub. Emil Abasov vurğulayıb ki, bu Qələbə təkcə torpaqlarımızın deyil, həm də milli qürurumuzun, dövlətçiliyimizin, azərbaycançılıq ideologiyasının qələbəsidir. YAP Pirallahı rayon təşkilatının sədri onu da qeyd edib ki, partiya üzvləri hər zaman olduğu kimi bu gün də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı inkişafı, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi istiqamətində həyata keçirilən siyasəti dəstəkləyir, bu istiqamətdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Tədbirdə çıxış edən Vətən müharibəsi şəhidi, ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən Nəbiyev Elmar Elman oğlunun anası Çiçək BiləndərliVətən uğrunda canından keçən bütün igidlərin xatirəsinin əziz olduğunu, onların Ali Baş Komandanın bir əmri ilə öz canlarından keçməsi sayəsində bu gün Azərbaycanın qalib dövlət kimi tarix yazdığını bildirib. O, şəhid ailələrinə göstərilən diqqətə, dövlət başçısının və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın daimi qayğısına görə minnətdarlığını ifadə edib. Çıxışlar yekunlaşdıqdan sonra tədbirin bədii hissəsi açıq elan olunub. Tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin və rayon ərazisində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iştirakı ilə keçirilən bədii hissə rəngarəng çıxışlarla yadda qalıb.



***Mətləb Salahov: 5 Orta Asiya rəhbərinin Vaşinqton səfəri onu göstərir ki, Moskva keçmiş sovet ərazilərində ciddi "qan itirir"***

# Tramp Rusiyanı Orta Asiyadan da qovur...

"ABŞ prezidenti Donald Trampın 5 Orta Asiya rəhbəri ilə Vaşinqtonda keçirdiyi son görüş həm də on illiklərdir ki, bu regionda hökmranlıq edən Rusiyaya mühüm mesaj oldu. Həm sovet dövründə, həm də 1991-ci ildən sonrakı vaxtlarda daima Orta Asiya üzərində siyasi və iqtisadi hökmranlığını, əlaxüsus da güclü təsir imkanlarını saxlamış Moskva, artıq bu gün bu mövqeyini tamamilə itirib. Belə olmasaydı bu Orta Asiya rəhbərləri Rusiya üzərindən rəsmi Vaşinqtonla bu tərzdə yaxınlaşma göstərməzdilər".

Bu fikir SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov deyib. O qeyd edib ki, Orta Asiya rəhbərlərinin Vaşinqtona çağırılıb bir sıra müqavilələrə imza atmaları onu göstərir ki, Kreml keçmiş sovet ərazilərində ciddi "qan itirir": "Diqqət edin, digər keçmiş sovet respublikalarından fərqli olaraq Orta Asiya dövlətləri daima Moskvanın sadiq tərəfdaşı kimi tanınıblar. Amma bu gün vəziyyət başqadır.

Qazaxıstanın "İbrahim Sazişi"nə qoşulması, Özbəkistanın Donald Tramp bəyan etdiyi kimi, üç il ərzində məhsul alışı və investisiyalar vasitəsilə Amerika iqtisadiyyatına təxminən 35 milyard dollar sərmayə qoyacağı barədə öhdəlik götürməsi Rusiya üçün həddindən artıq siyasi və iqtisadi itkilərdir.

Bu həm də o deməkdir ki, Kreml rəhbərlərinin qeyri-ciddi yanaşdıqları hazırkı Ağ Ev sahibi Rusiyanı ciddi təcrid siyasəti yürüdür və hələ ki, öz istəyinə tam nail olmaqdadır. Belə demək mümkünsə hazırda Rusiya Vladimir Putinin lovğa siyasətinin qurbanına çevrilir".

***Ayşən Vəli***

# Azərbaycan qələbələri fəth edir



***Dünyanın tanınmış tarixçiləri, tədqiqatçıları, eləcə də məşhur hakimləri faktlarla sübuta yetirirlər ki, bəşəriyyətdə ən qəddar, vəhşi toplum ermənilərdir. Çünki onlar insanlığa qarşı amansız soyqırımları, genosid aktları həyata keçiriblər. Dünyanın elə bir bölgəsi, şəhər və kəndi yoxdur ki, orada erməni terrorunun izi olmasın. Yaxın Avropada, Asiyada ermənilər müxtəlif terrorçu dəstələrlə birlikdə yüzlərlə insanın ölümü ilə nəticələnən terror aktları törədiblər.***

Təəssüflər olsun bəşəriyyət, xüsusilə də demokratik düşüncəli sivil xalqlar erməni vəhşiliyinin dünyada analoqu olmadığını bildikləri halda hər hansı bir tədbir görmürlər, ən azı bu toplumun varlığına son qoymaq üçün BMT çərçisində təşəbbüslərlə çıxış etmirlər. Bu da ondan xəbər verir ki, bəzi dövlətlər və şəbəkələr müəyyən cəmiyyətləri təhdid etmək üçün erməni toplumunun meydanda qalmasında maraqlıdır. Baş verənlər fonunda onu da qeyd etmək olar ki, erməni vəhşiliyindən ən çox zərəri və zərbəni azərbaycanlılar alıblar. Müxtəlif dövlətlərin hərbi-siyasi dəstəyinə arxalanan ermənilər Azərbaycan ərazilərində qətliamlar, soyqırımı aktları həyata keçiriblər. Ümumilikdə iki əsr ərzində 2 milyondan çox azərbaycanlı qətlə yetirilmiş, yaralanmış, ömürlük şikəst olmuş, ev-eşiyindən didərgin düşmüşdür. 20 -ci əsrdə ermənilər dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti həyata keçiriblər. Yalnız 1918-ci il martın 30-dan aprelin 5-ə qədər ermənilər Bakı, Şamaxı, Quba, Şəki, İrəvan, Naxçıvan, Lənkəran və digər yaşayış məskənlərin də 450-500 minə yaxın azərbaycanlını qətlə yetiriblər. Rəsmi sənədlərə istinadən qeyd olunur ki, mart soyqırımı nəticəsində Bakıda 20 mindən çox azərbaycanlı amansızlıqla öldürülmüş, 30 minə yaxın insan isə yaralanmışdır.

### Ermənilər tarixdə vəhşi kimi qalacaq

Daşnak-bolşevik hərbi birləşmələri tərəfindən Şamaxının 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq Cümə məscidi yandırılmışdı. Erməni quldurları minlərlə dinc insanı, Şamaxı qəzasının 53 kəndində 12 min azərbaycanlını qətlə yetirmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya ilkin mərhələdə Şamaxıda törədilən erməni vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bununla torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. İyirminci əsrin əvvəllərində ermənilləri törətdiyi dağıntılar, qarətlər, talanlar nəticəsində minlərlə azərbaycanlı həyatını itirmi, tarixi abidələr, memarlıq nümunələri yerlə yeksan olunmuşdur. Erməni vəhşiliyi sovetlərin mövcudluğu dövründə də davam etmişdir. Sovet bolşeviklərinin Azərbaycanı işğal etmələri və Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Havadarlarının Moskvada möhkəmlənməsindən istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Ermənilər 1947-1953-cü illərdə azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Erməni millətçiləri öz havadarlarının köməyi ilə ötən əsrin 80-cı illərin ortalarından Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etməyə başladılar. Ermənistandan və Qarabağdan yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına nail oldular. Torpaqlarımızın işğal edilməsi minlərlə azərbaycanlının öldürülməsi, yaralanması ilə nəticələnirdi.

### Qələbəyə gedən yolun başlanğıcı

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Komandanlığı ilə ordumuz cəmi 44 günə erməni terror maşınını məhv edib, 30 il işğal altında olmuş torpaqlarımızı azad etdi. Xoşbəxt xalqıq, həm də qürurluyuq. 30 il işğal altında olmuş torpaqlarımızı 44 günlük Vətən müharibəsi ilə azad etməklə dünyanın ən böyük xalqlarından olduğunu göstərdik. Dünya hərb tarixində görünməyib ki, qısa müddətdə hansısa ordu geniş coğrafi ərazidə uğurlu hərbi əməliyyatlar keçirib, düşmənin hərbi silah-sursatını canlı qüvvəsini məhv edib, böyük zəfərə imza atsın. Azərbaycan ordusu, Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə özlərini qüdrətli sərkərdə, məğlubedilməz ordu kimi təqdim edən ordunun bacarmadığını 44 günlük Vətən Müharibəsində reallaşdırdı. 2020-ci il sentyabrın 27-sində başlayan 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Qarabağın tacı sayılan Şuşa şəhəri daxil olmaqla Cəbrayıl, Fizuli, Qubadlı, Zəngilan və digər rayonlarını, o cümlədən Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini, Tərtər rayonunun Suqovuşan kəndini və ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan məğlubiyyətini qəbul edib. Yəni Ermənistan Azərbaycan ordusunun sürətli hücumu qarşısında duruş gətirməyəcəyini başa düşərək ağ bayraq qaldırıb. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb. çtərəfli Bəyanatın imzalanmasının ardından Azərbaycan Prezidenti, fateh Sərkərdə İlham Əliyev qalib Azərbaycan xalqına müraciət edib. Ali Baş Komandan müraciətində üçtərəfli Bəyanatın tarixi əhəmiyyəti olduğunu bildirib: "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaq. Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm".

### Bölgədəki separatizmə birdəfəlik son qoyuldu

Hesab olunurdu ki, Ermənistanın məğlubiyyətindən sonra bölgəyə sülh gələcək, separatizmə, terrora son qoyulacaq. Lakin Ermənistandakı revanşist qüvvələr regionda sabitliyin yaranmasına imkan vermədilər. Məhz Ermənistana göstərilən siyasi hərbi, dəstək nəticəsində Azərbaycanın sərhəd bölgələrində ardıcıl erməni təxribatlar baş verdi. Baxmayaraq ki, 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradılmışdır. İşçi qrupunun vəzifəsi bölgədə sabitliyə nail olunması və sərhədlərin delmitasiyasını həyata keçirmək idi. 2022-ci ilin sentyabrında erməni terror dəstələri Azərbaycanın sərhəd bölgəsinə xain hücum təşkil etdilər. Lakin Azərbaycan ordusu hücumun qarşısını alaraq yüzlərlə ermənin məhv etdi, çoxsaylı hərbi texnikanı sıradan çıxartdı. İrəvandakı hakim rejimin tapşırığı ilə Qarabağdakı erməni separatçıları ara-sıra ordumuza qarşı terror əməllərinə cəhdlər göstərirdilər.

2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri Şuşa istiqamətində təxribatlar törətmiş, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuşdur. Qarabağdakı erməni separatçılarına silahı yerə qoymaq və təslim olunmaları üçün xəbərdarlıqların edilməsinə baxmayaraq nəticə olmadı. Arayik Artunyan, Vardanyan, Saakyan, Qukasyan və digər separatçılar ordumuza və mülki əhaliyə qarşı terror əməllərini həyat keçirirdilər. "Fərrux", "Qisas" və bu kimi digər hərbi əməliyyatlar belə, separatçılar üçün dərs olmadı. Əksinə xarici güclərə arxalanaraq humanitar yönlü "Laçın" yolundan hərbi yüklərin daşınmasını təşkil edir, mülki insanlarımıza atəş açırdılar. Təbii ki, separatizm uzun çəkə bilməzdi. Nəhayət, bütün bu qanunsuz əməllərin qarşısının alınması üçün 2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə Ermənistan ilə sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsi yaradıldı. Bununla da separatçılara Ermənistandan silah-sursat daşınmasının qarşısı alındı. Lakin Xankəndidə ki terrorçu dəstə hərəkətə keçərək ordumuza qarşı açıq terror aktları həyata keçirməyə cəhd göstərdi. Bu zaman Azərbaycan sərt cəza tədbirləri həyata keçirməyə məcbur oldu. 2023-cü il sentyabrın 19-da başlayan və 23 saat çəkən lokal antiterror tədbirləri ilə separatizm tamamilə məhv edildi. Separatçıların əsas başçıları isə hüquq –mühafizə orqanları tərəfindən həbs edilərək istintaqa təhvil verildi. Onlara qarşı terrorizm, terrorçuluğu maliyyələşdirmə, qanunla nəzərdə tutulmayan silahlı birləşmə və qruplaşmalar yaratmaq, terrorizm məqsədilə təlimlər keçirmək ittihamları irəli sürülüb. Onların hazırda məhkəmləri keçirilir. Heç şübhəsiz ki, hərbi cinayətlərdə, terrorizmi və terrorçuluğu maliyyələşdirməkdə ittiham olunan cinayətkarlar layiq olduqları cəzanı alacaqlar.

Təbii ki, bundan sonra Azərbaycan daha da güclənəcək və inkişaf edəcək. Bunun üçün siyasi iradə, xalqın birliyi, ölkənin resursları mövcuddur.

***İLHAM ƏLİYEV***



Mətanət Məmmədova

## Zəfər paytaxtının vətənpərvər uşaqları!

***Səhər-səhər, sübhün gözü Zəfərin paytaxtında açılandan havadan da Zəfərin ətri gəlir. Şəhər başqan-başa qələbə sevincinə, Zəfər qüruruna bürünüb. Hər kəsin üzündən qürur hissi var, 30 ilin ələm-kədərini Zəfər artıq 5 ildir ki, təbəssümlə doldurub. Daha çox qürurla isə hər addımda qarşılaşmaq olur: bu gün sanki uşaqların günüdür. Şəhər uşaqlarla doludur: hərbi geyimdə, üzlərində Azərbaycan bayrağının, xarıbülbülün əksi, əllərində üçrəngli bayrağımız, üzlərində təbəssüm. Valideynləri ilə birlikdə hərbi paradı seyr etməyə, Zəfərimizin 5-ci ildönümünü qeyd etməyə gedirlər. Küçələrdə necə deyərlər, iynə atsan, yerə düşməz. Uşaqların şaqraq gülüşü, hələ bir arada qulağıma gələn sualları: ata, parad başlamaz ki? Ana, parada "İçərişəhər"lə gedirik?***

Həqiqətən çox qürurvericidir. Ona görə ki, ölkəmizdə bu cür Vətən sevgisi ilə ürəyi döyünən uşaqlar böyüyür. Müharibənin, işğalın, azadlığın, müstəqilliyin, bayrağın, ordunun mahiyyətini hələ lap balaca yaşından tam mənası ilə anlayan uşaqlar...

Onların əynindəki hərbi geyim-şalvar-ətəklər, köynəklər, papaqlar sanki dil açıb bu uşaqların qəlbindəki ordu sevgisindən danışır. Özlərini əsgər və zabitlərə, şəhid-qazilərə bənzətmələrindən, onlar kimi Vətən vurğunu, torpaq sevdalısı olmalarından danışır.

Onlara baxdıqca, tələşla parada yaxınlaşmaq cəhdlərini müşahidə etdikcə qürur duydum. Üzümdəki təbəssümlə, gözlərimdəki sevgi ilə onların üzünə baxarkən bir anda qarşılaşan gözlərimizdə onların qürurunu asanlıqla görə bildim.

Mənə elə gəldi ki, bu Zəfər paytaxtında ən çox balacaları gördüm. Onların sevincinə, tələşına şahid olduğum üçün sanki balacaların yaşına da enmiş oldum. Onların gözü ilə Vətənə baxa bildim. Onların içində döyünən yumruqları boyda ürəklərində parada hansı sevgi ilə getdiklərini hiss edə bildim.

Valideynlər də sağ olsun ki, səhərsəhər onlara bu sevinci bəxş ediblər. Dünəndən bu gün paradın olacağı xəbərini verib, onları tezdən yuxudan qaldırıb, yedirib-içirib, paltarlarını geyindirib, əllərindən tutub Zəfər paytaxtına çıxarıblar.

Bax, vətənpərvərlik budur. Belə olur ki, Vətən, torpaq uğrunda Vətən övladı canından keçməyə hazır olur. Əlbəttə, dünənkilər bugünkülərə nümunədir. Onların həyatının aşılanması bax, belə uşaqların var olduğu cəmiyyətin gələcəyindən xəbər verir. Zəfər paytaxtında bu gün qarşılaşdığın ən gözəl anı qələmə almaq da borclarımızdan biri olduğu üçün budur, yazdım. Bayramın mübarək, əziz xalqım! Bayramınız mübarək, azərbaycanlılar! Və bayramınız mübarək, Zəfər paytaxtının vətənpərvər uşaqları!

# Qürur mənbəyimiz Azərbaycan Bayrağı!



***Müstəqillik rəmzlərimizdən olan üçrəngli bayrağımız qürurumuz, varlığımızdır və Vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalandıqca var olacağıq. Bu gün Vətən torpağının hər bir yeri milyonlarla insanı bir amalla, bir məsləklə birləşdirən Azərbaycan bayrağına bürünüb. Bütövlüyümüzün simvolu olan millətimizin imzasını dünyada təsdiqləyən bu bayraq tarixində əzəmətli, möhtəşəm olan günlərini yaşayır. Qürurvericidir ki, bütöv və suveren Azərbaycanda Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı.***

Şərqdə ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik ənənələrinin formalaşması baxımından, mühüm rol oynamış və müstəqil dövlətə xas olan atributlar təsis edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, 71 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı. Siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətli olan bayrağımıza görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev hər zaman dövlət atributlarından biri kimi xüsusi diqqətlə yanaşmış, "Gərək hər bir evdə Azərbaycan bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun", – deyə bildirmişdir.

### "BİZİM BAYRAĞIMIZ CANIMIZDIR, ÜRƏYİMİZDİR"

Ucadan uca üç rəngli Azərbaycan bayrağı. Qürurlu, əzəmətli Azərbaycan Bayrağı. Hər zaman vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalanan Azərbaycan bayrağına bu gün vətən torpağının hər bir yeri bürünüb. Bu bayraq müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvoludur. Uşaqdan böyüyə qədər sanki hər kəs özünə bayraqdan don biçib. Bu bayrağı belə qüdrətli edən, dalğalandıran Azərbaycan xalqın Böyük Lideri, Prezidenti var. Bayraq bir dövlətin, millətin şərəf və ləyaqətinin ifadəsi milli suverenliyin simvolu, qürur mənbəyidir. Bayrağımız Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən biridir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir.

Hər kəs bu böyük amalla Azərbaycan bayrağının Vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Yalnız 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağımızın yenidən ölkəmizin müstəqillik rəmzinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında müstəsna xidmətlərindən biridir.

### "AZƏRBAYCAN BAYRAĞI SADƏCƏ BAYRAQ DEYİL"

1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

### BAYRAĞIMIZ ÜZƏRİNDƏKİ HƏR BİR RƏNG AZƏRBAYCAN TARİXİNDƏN DANIŞIR

Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməli, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın bu gün Qarabağda, Şərqi Zəngəzurda dalğalanması hər bir vətəndaşımıza qürur hissi yaşadır. Artıq hər kəs əmindir ki, bayrağımız işğaldan azad olunmuş torpaqlarda da əbədi olaraq dalğalanacaq.

***Zümrüd BAYRAMOVA***

---

# "Mina təhlükəsinin miqyası çox genişdir"

***"Hazırda işğaldan azad olunmuş ərazilərdə mina və partlamamış sursatların təmizlənməsi Azərbaycanın qarşısında duran ən vacib və strateji vəzifələrdən biridir. Bu proses təkcə hərbi təhlükənin aradan qaldırılması baxımından deyil, həm də sosial, iqtisadi və humanitar aspektlərdən ölkənin gələcəyi üçün həyati əhəmiyyət kəsb edir".***




Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Emin Həsənli deyib. Onun sözlərinə görə, minalardan azad olunmadan həmin ərazilərdə infrastrukturun qurulması, kənd təsərrüfatının bərpası və insanların təhlükəsiz şəkildə öz doğma yurdlarına qayıdışı mümkün deyil: "Minaların təmizlənməsi prosesi postmüharibə dövrünün ən çətin, amma ən həyati mərhələsidir. Hazırda bu işlər əsasən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən həyata keçirilir və bu prosesə Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və digər qurumların mühəndis-istehkamçı bölmələri də cəlb olunub. Eyni zamanda, Türkiyə, Böyük Britaniya, İsrail, Macarıstan, Fransa kimi ölkələr və BMT, Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar da bu prosesdə həm texniki, həm də maliyyə baxımından dəstək göstərirlər.

Mina təhlükəsinin miqyası çox genişdir. Ermənistan işğal dövründə təkcə döyüş mövqelərini deyil, həm də yaşayış məntəqələrini, kənd yollarını, əkin sahələrini, meşələri, hətta qəbiristanlıqları və su mənbələrini belə məqsədli şəkildə minalayıb. Bu, beynəlxalq humanitar hüququn açıq şəkildə pozulmasıdır və onun nəticələrini bu gün də Azərbaycan xalqı hiss edir.

Təmizlənmə prosesi bir neçə mərhələdə həyata keçirilir: əvvəlcə mina risklərinin xəritələşdirilməsi və risk qiymətləndirilməsi aparılır, daha sonra ərazilər mexaniki və əl üsulu ilə təmizlənir, sonda isə təhlükəsizliyin yoxlanılması və sertifikatlaşdırılması mərhələsi baş tutur. Bu, həm texniki, həm də insan resursları baxımından olduqca vaxt və səbr tələb edən bir prosesdir. Lakin bu istiqamətdə ciddi problemlər mövcuddur. Ən böyük çətinlik Ermənistanın minalanmış ərazilərin dəqiq xəritələrini tam şəkildə təqdim etməməsidir. Rəsmi Bakıya verilən xəritələrin əksəriyyəti natamam və qeyri-dəqiqdir, nəticədə bu, həm əməliyyatların ləngiməsinə, həm də itkilərin artmasına səbəb olur. Təəssüf ki, bu günədək onlarla hərbçi və mülki şəxs mina partlayışlarının qurbanı olub.

Bundan əlavə, ərazilərin relyefi və təbiət şəraiti də təmizləmə əməliyyatlarını çətinləşdirir. Dağlıq və meşəlik zonalarda ağır texnikanın işləməsi mümkün olmur, belə hallarda mütəxəssislər mina axtarışını əl üsulu ilə aparırlar. Bu isə həm təhlükəlidir, həm də çox vaxt aparır. Həmçinin hava şəraiti, xüsusilə yağışlı və qarlı mövsümlər əməliyyatların tempinə mənfi təsir göstərir. Bu çətinliklərin aradan qaldırılması üçün bir neçə əsas istiqamət üzrə tədbirlər görülməlidir. Mina təmizlənməsi çox bahalı və uzunmüddətli bir prosesdir, buna görə həm dövlət büdcəsindən, həm də beynəlxalq donor təşkilatlardan daha çox vəsait ayrılmalıdır."

***Ziya Hikmətoğlu***

***Beş il bundan əvvəl - 10 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır", - deyə bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin birgə imzaladığı Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.***



# Qələbəmizi rəsmiləşdirən 10 noyabr Bəyanatı!

Bəyanata əsasən, Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. 20 noyabr 2020-ci il tarixinədək isə Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

Üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və Kəlbəcər işğaldan azad olundu.

Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, "Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlarini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır".

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları Bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

Üçtərəfli görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata verdiyi bəyanatda da bu məqamı xüsusi vurğulayaraq demişdir: "Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq".

Bəyanatda o da qeyd olunurdu ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. "Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

## "NOYABRIN 9-DA ARTIQ ERMƏNİSTAN TƏRƏFİ DƏ ÖZ MƏĞLUBİYYƏTİNİ QƏBUL EDİB"

Dünya miqyasında söz sahibi olan Azərbaycanın iqtisadi gücü, hərbi qüdrəti, xalq-iqtidar birliyi dövlətimizin böyük gücə malik olduğunun təzahürüdür. 44 günlük Vətən müharibəsində Azərbaycanın gücünün göstəricisidir ki, xalqımız Zəfər tarixini yaşadı. Qorxaq, vəhşi erməniyə Azərbaycan oğulları döyüş məharətlərini, peşəkarlıqlarını göstərdilər. 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da onu kapitulyasiya aktını imzalamasına məcbur etmiş oldu. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanması Azərbaycanı dünyada qalib, Ermənistanı isə məğlub dövlət kimi tanıtdı.

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı. Cənab Prezidentin bildirdiyi kimi, "Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın həm döyüş meydanında, həm də diplomatik danışıqlar nəticəsində qazandığı zəfər tariximizə Qələbəmizi həkk etdi və bu hər birimizdə böyük qürur, fəxarət hissi yaratdı. Bu tarixi qələbəmiz bütün dünyaya yayıldı və Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmaqla, onları torpaqlarımızdan qovaraq, məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Bu əlamətdar hadisə milli birliyimizi, həmrəyliyimizi daha da gücləndirdi.

## "BİZ ƏDALƏTLİ SÜLH İSTƏYİRİK"

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, "Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur."

Bəyanatın imzalanmasından beş il ötməsinə baxmayaraq, Ermənistan hələ də sülh müqaviləsinin imzalamayıb. "Biz müharibə istəmirik. Biz ədalətli sülh istəyirik. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır. Əgər Ermənistan xoş niyyət göstərsə, bu, imzalanacaq, göstərməsə, imzalanmayacaq. Ondan sonra nə olacaq, onu həyat göstərər", - deyə Prezident bildirmişdir.

Qeyd edək ki, Ermənistan beynəlxalq hüquq normalarını yenidən pozaraq, 2023-cü ilin sentyabrında genişmiqyaslı təxribat törətdilər. Bu təxribatı törətməklə Azərbaycan-Ermənistan sülh danışıqlarını pozmaq və regionda hərbi gərginliyi artırmaq məqsədini reallaşdırmağa çalışıb. Ermənistanın hazırkı siyasi elitası 2020-ci il 10 noyabr Bəyanatının şərtlərini yerinə yetirməməkdə, sülh danışıqlarını müxtəlif bəhanələrlə pozmaqda israrlı olduğunu göstərmiş oldu. Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı. Ərazi bütövlüyünü bərpa edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etmiş oldu. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri apardığı bir zamanda, Ermənistanın yenidən bu və ya digər çirkin əməllərə əl atması ilə təcavüzkar siyasət yürüdən Ermənistanın davamlı sülh prosesinə ciddi maneə olduğunu bir daha ortaya qoymuş olur.

10 noyabr Bəyanatının imzalanması ilə ölkəmizin əldə etdiyi ən önəmli siyasi uğurlardan biri Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyasına razılıq əldə olunması və bu məsələ ilə bağlı müvafiq Komissiyaların yaradılması oldu.

Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlanılıb. Dövlət başçısı bildirib ki, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Aparılan abadlıq-quruculuq işləri ərazilərimizin tezliklə müasir bir əraziyə çevriləcəyini göstərir.

***Zümrüd BAYRAMOVA***

# Gecələr niyə daha çox düşünürük?

***Gündüzlər həyat səsli olur — küçələr, danışanlar, qəlblə düşüncə arasına girən iş və hərəkət axını. Bu səs-küy insanın içində olanı susdura bilir. İç dünyamızla məsafə qalır. Fikirlər, hisslər, xatirələr gün işığının altında kölgəyə çəkilir. Lakin gecə düşəndə dünya səssizləşir. Hər şey yavaşlayır, amma insanın içi sürətlənir. Sükut bizə özümüzü eşitmək imkanı verir. Elə bu səbəbdən gecələr düşüncələr çoxalır — çünki nəhayət, onların danışa biləcəyi qədər sakitlik yaranır.***



## Gecə səssizliyi beynin dərinliklərini necə aşkar edir?

İnsan beyninin ən sakit işlədiyi an, kənar səslər çəkildiyi vaxtdır. Görünən dünya yuxuya gedir, amma yaddaş oyanır. Gündüz ərzində yaşanan, amma üzərində dayanılmayan hər hiss, hər narahatlıq, hər sual gecə öz yerini tələb edir. Zehin sanki bütün günü yığılmış düşüncələri sıralayır, düzəldir, qiymətləndirir.

Əvvəl diqqətdən qaçırdığımız xırda bir



cümlə belə, gecə gözümüzün içinə baxmağa başlayır. İnsan üz-üzə qalır — özü ilə. Bu, həm qorxulu, həm də şəfa verici bir qarşılaşmadır. Sükut insanı özünə qaytarır. Bəs niyə insan ən uzaq xatirələrini məhz gecə xatırlayır dedikdə isə səbəbi zehin gecə dərinləşməsidir. Günün yorğunluğu çəkildikcə, yaddaşın tozlu otaqları açılır. İllər öncə bitmiş söhbətlər, qəfil ayrılıqlar, doyulmayan xoşbəxt anlar, izah edilməmiş peşmanlıqlar yavaş-yavaş suyun üzünə çıxır.

Bu xatırlama əslində ruhun özünü tamamlama cəhdidir. İnsan keçmişə qayıdır, çünki orada həll olunmamış bir şey qalır. Gecə həmin şeyi öz ardınca çəkir. Zehin unutmur. Ruh bağlanmayan hər hekayəni yenidən çağırır. Bəzən bunun adı həsrət olur. Bəzən kədər. Bəzən sadəcə “niyə belə oldu?” sualı.

## Gecələr niyə qəlb daha həssas olur?

Gecə insanın müdafiə divarları aşağı düşür. Gün ərzində “güclü olmalıyam” deyən hiss gecələr səssizcə kənara çəkilir. İnsan sanki maskasız qalır. Qəlb öz təbii halı ilə görünür — yorğun, incik, sevən, darıxan, düşünən, axtaran.

Ətrafda heç kim yoxdur, heç kim görmür, heç kim qiymətləndirmir. Bu azadlıq duyğusu duyğunu dərinləşdirir. Qəlb nə gizlənir, nə də susur. Bəzən ağlayır insan, bəzən sükut edir, bəzən pəncərəyə baxıb heç nə demir. Amma içində çox şey danışır. Gecə qəlbi tamamilə həqiqi edir. Bəs insan gecə düşüncələrindən niyə qaça bilmir?

Çünki insan içindən qaça bilmir. Yatmağa çalışır, amma yuxu gəlmir. Telefonu əlinə alır, amma diqqət dağılmır. Məkanı dəyişir, amma düşüncələr ardınca gəlir. Düşüncələrdən qaçmaq xəyalı yalnız gündüz real görünür. Gecə isə insan anlayır ki, içində olanlarla mütləq danışılmalıdır. İnsanın tək qaldığı hər an, ruh özünü xatırladır.

## Gecə düşünən beyin nə axtarır?

Əslində insan heç vaxt cavab deyil, sakitlik axtarır.

Sakitlik — içi ağrıtmayan bir an.

Sakitlik — içi sızlamayan bir nəfəs.

Sakitlik — hər şeyin olduğu kimi qəbul olunduğu bir yer.

İnsanın gecələri çox düşünməsi onun zəifliyi deyil.

Bu, insanın canlı olduğunun, hiss etdiyinin, içində bir həyat daşıdığının sübutudur. Düşünən ruh — yaşayan ruhtur.



## Gecə düşüncələrindən sonra insan niyə yüngülləşmir?

Gecə düşüncələri çox vaxt cavab tapmaq üçün yaranmır. Onlar sadəcə içdə olanın üzə çıxmasıdır. İnsan gecə keçmişi düşünür, həsrəti xatırlayır, özünə sual verir, amma bu sualların çoxunun cavabı yoxdur. Bəzən cavab var, amma onu qəbul etmək çətindir. Ruh yalnız sual verməyi öyrənib — cavabı eşitməyə hazır deyil. Bəzən insan köhnə xatirənin qapısını döyür. Çünki içində qalan bir toxunuş, bir söz, bir baxış tamamlanmayıb. Lakin o qapı açılmır. Keçmiş cavab vermir. Və insan bu sükutun içində daha da dərinləşir.

Yüngülləşməməyin səbəbi, insanın yadda\$la deyil, içindəki hisslə qarşılaşmasıdır. Düşüncə sözlədir, amma ruh hisslə nəfəs alır. Hiss isə nə izah olur, nə təskinlik tapır. Onu yalnız yaşamaq olur. Buna görə gecə düşüncələri insanı yüngülləşdirmir — əksinə, daha çox içəriyə aparır. Çünki gecə nəyi üzə çıxarırsa, o artıq çoxdan orada idi. Sadəcə gündüzlər sükuta bürünüb gözləyirdi.

## Ruhun gecə danışdıqlarını dinləmək necə mümkündür?

Ruhun danışığı sözlə olmur. Ruh gecələr susaraq danışır. O, pəncərəyə baxarkən hiss olunur. Sükutun içində özünü duyanda gəlir. Ürək qəfil sıxılanda, nəfəs bir anlıq dəyişəndə hiss edilir. Daxildəki hər səs çox yumşaqdır — onu eşitmək üçün insanın özünə qarşı sakit olması lazımdır.

İçimizdə danışan hisslərdən qaçmaq deyil, onları qucaqlamaq lazımdır. Hiss qaçdıqca böyüyür, qəbul etdikcə sakitləşir. Ruh yorğunluğu insanı parçalamır — o, insanı tanıdır. İnsan özünü ən çox ağrıyan yerdə görməyə başlayır. Ruhu dinləmək, onun dediyini başa düşmək demək deyil. Sadəcə yanında olmaq deməkdir. Özünlə qalmaq. Özünü incitmədən, özünü sıxmadan. Heç bir “niyə?”, “nə olardı?”, “kaş ki” demədən. Sadəcə hissin gəldiyi kimi.

Bəzən ruh yalnız bir şey istəyir: ”Heç kimə izah etmədən, heç kimə sübut etmədən, heç kimin anlamasına ehtiyac duymadan — sadəcə var olmaq”. İnsan bir gecə özü ilə oturub ağlayırsa, demək ki, içi sağalmağa başlayır. Çünki göz yaşı ağrının dilidir, ruhun danışma üsuludur. Göz yaşının gücü ondadır ki, o, içində daş kimi duran duyğunu yumşaldır. Ruh öz səsini tapdıqda, insan tədricən yüngülləşir. Bu yüngüllük dərhal gəlmir. O, sakit, addımsız gəlir. Hiss içində bir gün səssizcə yerini dəyişir. İnsan



nəfəsini daha rahat alır, gözləri daha yumşaq baxır, gündəlik həyatın səsi yenidən davam edəcək güc tapır.

## İnsanı yorub usaduran dərd necə danışmağa başlayır?

İnsanın içində bəzi duyğular var ki, onları sözlərlə ifadə etmək mümkün deyil. Onlar danışsa belə, sözlər hissin böyüklüyünü daşıya bilmir. Bu dərdlər əvvəlcə sakit dayanır, insanın içində sakit suda dibi görünməyən bir nöqtə kimi qalır. Zaman keçir və insan həmin nöqtənin ətrafında dövrə vurur. Hər düşüncə, hər xatırlama, hər gecə həmin nöqtəyə toxunur. Sonra birdən insan hiss edir ki, artıq bu yük ağırdır. Daxildəki sükut danışmaq istəyir.

Dərd danışmağa başladığı an insanın içində bir təlatüm yaşanır. Gözlər dolur, nəfəs dəyişir, boğazda sözlərlə sükut arasında ilişən bir ağırlıq yaranır. İnsan o an nə danışa bilir, nə susa bilir. Bu, ruhun parçalanmaqla bütövləşmək arasında qaldığı andır. Dərd özünü göstərmək istəyir, çünki içində gizləndiyi yerdə nəfəs ala bilmir. İnsan isə çox zaman onu geri itələyir. Çünki dərd üzə çıxanda insan yenidən hiss edir. Hiss etmək isə güc tələb edir. Amma bir gün olur ki, insan daha gizlədə bilmir. Bir gecə, bir nəfəs, bir söz, bəzən bir mahnı, bəzən bir qoxu, bəzən bir sükut dərdin qapısını açır. Və o zaman içdə çoxdan yığılan göz yaşı yol tapır. Bu ağlama zəiflik deyil — bu, ruhun nəfəsidir. Dərd danışanda insan yüngülləşmir dərhal, amma artıq tək qalmır. Çünki o, susan deyil — yaşayan hissdir.

İnsan və vaxt içi ilə barışmağa başlayır? Barışmaq məcburi bir qərar deyil. Barışmaq zamanın gətirdiyi sakitlikdir. İnsan nə qədər qaçsa belə, gün gəlir ki, artıq qaçmağa gücü qalmır. O zaman o, bir stul çəkib yorğunluğunun qarşısında oturur. Özünə baxır. Öz ağrısını, öz yarasını, öz keçmişini, öz səhvlərini görür. Qaçmadan, bəhanə etmədən, gizlətmədən. O an insan nə döyüşür, nə təslim olur — sadəcə qəbul edir.

Qəbul etmək həm kədər, həm güc, həm də azadlıqdır. İnsan öz içini olduğu kimi görəndə, yorğunluq artıq düşmən olmur. O, yaşanmışlığın izinə çevrilir. Dərin yara bir ağrıdan bir xatirəyə çevrildiyi an insan sağalmağa başlayır. İnsan barışanda dünya dəyişmir. Keçmiş silinmir. Heç nə ideal olmur. Amma içdəki yükün forması dəyişir. O artıq insanı əymir, sadəcə müşayiət edir. İnsan həm əvvəl olduğu kimi qalır, həm də tam başqa birisi olur: daha yumşaq, daha anlayan, daha dərin.

## İnsanın özünü yenidən tapması necə baş verir?

İnsanın özünü yenidən tapması böyük və kəskin bir dönüşlə baş vermir. Bu, sakit bir oyanışdır. Sanki uzun müddət qaranlıq bir otaqda oturmuş birinin gözləri yavaş-yavaş işığa alışır. Əvvəlcə heç nə dəyişməyib kimi görünür. Çünki insanın içindəki dəyişiklik həmişə görünməz başlayır. Hisslər əvvəl yumşalır. Nəfəs əvvəl sakitləşir. Beynin içindəki səs əvvəl azca yavaşıyır. Sonra insan birdən bir gün özünü çox illər əvvəlki kimi hiss edir. İçində unudulmuş bir istilik yaranır. Uşaqlıqdan qalan təmiz bir hiss kimi. Heç bir səbəb olmadan. Heç bir böyük hadisə olmadan. Sadəcə bir an. O an içdəki həyat yenidən öz səsini qaytarır. İnsan anlayır ki, içində heç vaxt ölməyən, sadəcə yorulan bir hiss varmış.

Özünü tapmaq bir “yenidən olmaq” deyil. Bu, “yenidən xatırlamaq”dır. İnsan özünün necə biri olduğunu unutmur — sadəcə yorğunluq həmin xatirənin üzərinə sakitcə çökür. Amma yorğunluq çəkiləndə hər şey olduğu kimi qayıdır: insan öz gücünü, öz kövrəkliyini, öz qəlbini xatırlayır. Qəlbin dərinliyi heç vaxt itməz. Sadəcə bəzən ona toxunmağa güc olmur.

İnsan özünü tapanda, artıq özünə qarşı döyüşmür. O, öz qorxularını düşmən kimi deyil, öz hekayəsinin parçası kimi görməyə başlayır. Qüsurları ilə barışır. Taşmadığı şeylərə görə özünü bağışlayır. Başa düşür ki, hər kəsin içində görünməz bir savaş var və heç kim tam güclü deyil. Bu anlayış insanın içində həm yumşaqlıq, həm güc yaradır. Çünki insan artıq özünə qarşı sərt deyil. O, özünü incitmədən yaşamağı öyrənir.

**Günel Fərzəliyeva**

ARAŞDIRMA

# Müstəqil Azərbaycanın Ana Qanunu




***Zəfər qazanmış Azərbaycan 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu günü - ilk milli Konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümünü qeyd edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi.***

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirilib. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edib.

Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

Qeyd edək ki, Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. SSRİ-nin yaradılması ilə əlaqədar 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunub. 1927-ci il martın 26-da V Ümumazərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-in növbəti Konstitusiyası təsdiq edilib. 1936-cı ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar 1937-ci il martın 14-də IX Ümumazərbaycan Sovetlər Qurultayının qərarı ilə Azərbaycan SSR-in yeni Konstitusiyası qüvvəyə minib. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edildikdən sonra Azərbaycan SSR-in yeni Konstitusiya layihəsi hazırlanıb. 1978-ci il aprelin 2-də ümummilli lider Heydər Əliyevin təklifi ilə yeni Konstitusiyada 73-cü maddə aşağıdakı redaksiyada verilib: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". 1978-ci il aprelin 21-də Azərbaycan SSR-in sonuncu Konstitusiyası qəbul olunub. Burada Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında tarixi xidmətlərindən biridir. Həmin Konstitusiyaya 1980-ci illərin ikinci yarısından etibarən çoxsaylı əlavə və dəyişikliklər edilib. Bunun nəticəsində ilkin redaksiyaya münasibətdə əhəmiyyətli dərəcədə dəyişikliyə uğrayan Konstitusiya 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilənədək qüvvədə olub.

## MDB MƏKANINDA VƏ MÜSƏLMAN DÜNYASINDA TARİXİ QƏRARI QƏBUL EDƏN İLK DÖVLƏT

Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Belə ki, mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlara uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.

## YARANAN ZƏRURƏT

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin tərəqqisinə, inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə töhfələr verir. Prezident İlham Əliyevin ötən 22 ildə Azərbaycana rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində uğurlar əldə edilib, ardıcıl olaraq sosial-iqtisadi islahatlar həyata keçirilib. Cəmiyyətin inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması konstitusiyada islahatların aparılmasını zəruri etdiyindən, 2016-cı ildə növbəti dəfə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi keçirildi. Konstitusiya islahatları cəmiyyətin sosial sifarişi olaraq ciddi bir zərurət kimi meydana çıxdı.

Son illər ərzində əldə edilən uğurlar, yeni çağırışlar konstitusiyamıza da təsirsiz ötüşmədi. Yeni dövrün tələblərinin yaratdığı zərurət Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilməsi ilə nəticələnib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

## "BU GÜN AZƏRBAYCAN XALQI MÜZƏFFƏR XALQ KİMİ YAŞAYIR"

Silahlı Qüvvələrlə bağlı edilən dəyişikliklər də təqdirəlayiqdir. Belə ki, Ali Baş Komandan statusu yalnız ordu, Silahlı Qüvvələr üzərində idisə, artıq konstitusiyaya edilən dəyişikliklərə əsasən, bütün silahlı birləşmələr Ali Baş Komandanın əmrinə tabedir. Digər mühüm və vacib məqamlardan biri isə prezidentlik müddətinin 5 ildən 7 ilə artırılmasıdır. Dünyanın bütün demokratik dövlətlərində vitse-prezidentlik institutu var. Dünya təcrübəsində olan bu demokratik ənənənin Azərbaycan Konstitusiyasında da əks olunması müsbət haldır. Bütün bunlar çevik və səmərəli siyasət aparmağa, ölkənin siyasi nüfuzunu və iqtisadi-hərbi qüdrətini daim artırmağa, iqtisadi və siyasi səhnədə olduğu kimi, idarəetmədə də islahatlar keçirməyə imkan yaradır.

Azərbaycanın dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar, tərəqqi və quruculuq prosesləri öz mənbəyini, məhz Azərbaycan Respublikasının Konstitusiyasından götürüb. Əsas Qanunda təsbit edilmiş prinsip və istiqamətlər ölkəmizdə siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə davamlı inkişafın əldə olunmasına zəmin yaradıb. Azərbaycan dövləti bu gün öz tarixinin böyük tərəqqi ilə xarakterizə olunan dövrünü yaşayır, öz inkişafının keyfiyyətcə yeni və daha yüksək mərhələsinə qədəm qoyub.

Bu gün Azərbaycan qalib ölkə kimi dünyada tanınır. Vətən müharibəsi Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş bölgələrdə ucaldılıb və bu bayraq daim həmin ərazilərdə dalğalanacaq. 44 gün davam etmiş Vətən müharibəsində qazanılmış parlaq Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra Azərbaycan Konstitusiyasının tələblər və müddəaları yerinə yetirilib. "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq" – deyə Prezident bildirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı bundan sonra da tarixi nailiyyətlər əldə edəcək.

*Nəzakət ƏLƏDDİNQIZI*

***Ötən əsrin sonlarında keçmiş SSRİ-nin ilk və son prezidenti Qorbaçov və ABŞ prezidenti Ronald Reyqanın göstərişi ilə qadağan edilmiş nüvə sınaqları bərpa oluna bilər. Bunu ilk olaraq Tramp, daha sonra Putinin sədrliyi ilə Rusiya Təhlükəsizlik Şurasının iclası ilə bağlı elan edib. Rusiyanın müdafiə naziri Belousov prezidentə məruzə edib ki, ölkəmiz də sınaq partlayışlarına hazırdır. Təbii ki, heç bir siyasətçi bu sınaqların harada və nə vaxt keçiriləcəyi ilə bağlı hər hansı hərbi sirri açıqlamayıb.***



# Nüvə şahmatı

## *Supergüclər oyunun qaydalarını niyə dəyişirlər?*

Bəs bu gün nüvə sınaqları aparıla bilərmi və bunun nəzəri cəhətdən ətraf mühitə vuracağı ziyan necə ola bilər? Yaxud nüvə sınaqlarının bərpa oluna biləcəyi mümkündürmü, yoxsa bütün bunlar sadəcə siyasi oyundur? Nüvə sınaqları heç vaxt dayandırılmayıb, lakin son onilliklərdə fakti-ki partlayışlarla nəticələnməyib. Nüvə silahı komponentlərinin sınaqları həm burada, həm də orada gündəlik baş verən hadisədir. Sadəcə olaraq bunun nüvə reaksiyası həddinə çatmasına imkan vermirlər

### Yeni nüvə yarışı

Rusiya ABŞ-ın nüvə sınaqlarını bərpa etmək hədəsinə cavab verib. Vladimir





Putinin Rusiya Təhlükəsizlik Şurasının iclasındakı bəyanatı qlobal mediada geniş işıqlandırılır. Çoxları nüvə silahı yarışının mümkün bərpasından danışır və artıq ABŞ prezidenti Donald Trampı günahlandırıb. Prezident Donald Trampın nüvə silahı sınaqlarının bərpası ilə bağlı qeyri-müəyyən əmri Rusiyanı belə bir addımı nəzərdən keçirəcəyini elan etməyə vadar edib. Bu, iki fövqəldövlət arasında "Soyuq Müharibə"nin silahlanma yarışına geri dönən narahatedici bir hadisədir... Putinin reaksiyası Moskvanın nüvə mövqeyində dərhal dəyişikliyə işarə etmir... lakin bu, ABŞ-ın bunu ilk etsə, nüvə silahlarını "günlər ərzində" sınaqdan keçirə biləcəyinə əmin olmaq istədiyini göstərir.



ABŞ-ın döyüş başlığı sınaqlarına qayıtması geriyə doğru böyük bir addımdır. Bu, təkcə Rusiya və Çinə deyil, silahlarını modernləşdirməyə çalışan digər nüvə dövlətlərinə də öz hərəkətlərinə haqq qazandırmağa imkan verəcək. Bu, həm də qeyri-nüvə dövlətlərini belə silahların arxasınca getməyə həvəsləndirə bilər... Rusiyanın Ukrayna ilə müharibəsinin nüvə şantajının qayıdışı olduğunu nəzərə alsaq, silahlara nəzarətin azalması, yeni sistemlər əldə etmək istəyi və silahların sınaqdan keçirilməsi ilə bağlı söhbət getdikcə daha çox narahatedicidir.

Əgər ABŞ moratoriyi pozarsa və silah sınaqlarına başlayarsa, bu, digər nüvə gücləri arasında domino effektinə səbəb ola bilər. Əvvəllər bildirilmişdi ki, Çin Lop-da çoxdan hazırdır, nə də sınaqları davam etdirməyə qərar verməməlidir. Hələlik Çin ABŞ-ı moratoriumun saxlanmasına çağırıb. Rusiyanın cavabı birmənalı olub. Rusiya Təhlükəsizlik Şurasının rəhbəri Sergey Şoyqu 31 oktyabr 2025-ci ildə "Əgər onlar sınaqlara başlasalar, biz də təbii olaraq bunu edəcəyik" deyib. Əgər ABŞ və Rusiya sınaqları bərpa edərsə, nüvə həmkarları qədər sınaq keçirməyən Çin də eyni şeyi edə bilər. Çin bunu edərsə, Hindistanda öz silahlarını sınaqdan keçirməyə başlamaq üçün çağırışlar eşidiləcək. Onda Pakistan kənarda qala bilməyəcək. Bəşəriyyət üçün uzunmüddətli nəticələrlə nüvə silahı yarışının yeni mərhələsi başlayacaq.

Rusiya yeni nüvə silahları ilə hədələyir və ABŞ da özünün nüvə silahını sınaqdan keçirmək istəyir. Lakin Moskva Amerika prezidenti Trampın nə qədər irəli getməyə hazır olduğuna əmin deyil. Son vaxtlar Putin Rusiyanın nüvə potensialı ilə bağlı təhdidlərini daha çox səsləndirir. O, həmçinin "Burevestnik" qitələrarası nüvə raketi və "Poseydon" nüvə torpedası kimi yeni silah növləri haqqında danışıb. Bu bəyanatlar xaricdə Kremlin əvvəlki təhdidlərindən daha az narahatlıq doğurdu. Lakin ABŞ-da prezident Donald Tramp təfərrüatları açıqlamadan ölkəsinin nüvə silahı sınaqları keçirəcəyini bəyan edib.

### Atom bombasının tarixi

Amerikalı Robert Oppenheimer və sovet alimi İqor Kurçatov adətən atom bombasının ataları hesab edilir. Lakin bu ölümcül silah üzərində işlərin dörd ölkədə paralel aparıldığını və İtaliya, Macarıstan, Danimarka və başqa yerlərdən alimlərin də iştirak etdiyini nəzərə alsaq, yaranan bombanı haqlı olaraq bir çox müxtəlif xalqların beyni adlandırmaq olar. İlk atom bombasının yaradılması üzərində dəqiq kimin işlədiyini izah edirik.

"Atom bombasını kim yaratdı" sualına adi cavab sadəcə olaraq belə olur: "Robert Oppenheimer". Ancaq xatırlamaq lazımdır ki, almanlar bu işi ilk öz üzərinə götürdülər. 1938-ci ilin dekabrında onların fizikləri Otto Hahn və Fritz Strassmann uran atomunun dünyada ilk süni parçalanmasına nail oldular. 1939-cu ilin aprelində alman hərbi rəhbərliyi Hamburq Universitetinin professorları P.Hartek və V.Qrotdan yeni növ yüksək effektli partlayıcı maddənin yaradılmasının fundamental imkanlarına işarə edən məktub aldı.

Alimlər yazırdılar: "Nüvə fizikasının nailiyyətlərini praktiki olaraq mənimsəməyə ilk müvəffəq olan ölkə digərləri üzərində mütləq üstünlük qazanacaq". Beləliklə, Reyxin Elm və Təhsil Nazirliyində "Özünü təbliğ edən (yəni zəncirvari) nüvə reaksiyası" mövzusunda görüş keçirildi. İştirakçılar arasında Üçüncü Reyx Silah İdarəsinin tədqiqat şöbəsinin rəhbəri professor E.Şuman da var idi. Gecikmədən sözdən hərəkətə keçdilər. 1939-cu ilin iyununda Berlin yaxınlığındakı Kummersdorf poliqonunda Almaniyanın ilk reaktor qurğusunun tikintisinə başlanıldı. Almaniyadan kənara uranın ixracını qadağan edən qanun qəbul edildi və Belçika Konqosundan təcili olaraq böyük miqdarda uran filizi alındı.

### Almaniya başlayır və...

1939-cu il sentyabrın 26-da Avropada artıq müharibənin getdiyi bir vaxtda uran problemi və "Uran Layihəsi" adlandırılan proqramın həyata keçirilməsi ilə bağlı bütün işlərin təsnifləşdirilməsi qərara alındı. Layihədə iştirak edən alimlər əvvəlcə kifayət qədər nikbin idilər: onlar bir il ərzində nüvə silahı yaratmağın mümkünlüyünə inanırdılar. Hadisələr sübut etdiyi kimi, yanıldılar.

Layihədə iyirmi iki təşkilat, o cümlədən Kayzer Vilhelm Fizika İnstitutu, Hamburq Universitetinin Fizika Kimya İnstitutu, Berlin Federal Texnologiya İnstitutunun Fizika İnstitutu, Leypsiq Universitetinin Fizika və Kimya İnstitutu və bir çox başqaları kimi tanınmış elmi mərkəzlər iştirak edib. Layihəyə şəxsən Reyxin silahlanma naziri Albert Speer nəzarət edirdi. IG Farbenindustrie konserni zəncirvari reaksiyaya davam edə bilən uran-235 izotopunu çıxara bilən uran heksafluoridin istehsalı ilə məşğul idi. Eyni şirkətə izotop ayırma qurğusunun tikintisi də tapşırılıb.

*Ardı Səh. 12*



RAKURS

# Nüvə şahmatı

Əvvəli-Səh-11

Heisenberg, Weizsdcker, fon Ardenne, Riehl, Pose, Nobel mükafatı laureatı Qustav Hertz və başqaları kimi görkəmli alimlər işdə bilavasitə iştirak etmişlər.

Heisenberg qrupu iki il ərzində uran və ağır sudan istifadə edərək nüvə reaktoru yaratmaq üçün lazım olan tədqiqatlar aparıb. Təsdiq olundu ki, izotoplardan yalnız biri, yəni adi uran filizində çox kiçik konsentrasiyalarda olan uran-235 partlayıcı kimi xidmət edə bilər. Birinci problem onu necə təcrid etmək idi. Bomba proqramının başlanğıc nöqtəsi moderator kimi qrafit və ya ağır su tələb edən nüvə reaktoru idi. Alman fizikləri suyu seçdilər və bununla da özlərinə ciddi problem yaratdılar.

Norveçin işğalından sonra faşistlər dünyada yeganə ağır su istehsal edən zavoda nəzarəti ələ keçirdilər. Lakin müharibənin əvvəlində fiziklərə lazım olan məhsulun tədarükü cəmi on kiloqram idi və hətta bunlar da almanların ixtiyarına verildi – fransızlar qiymətli məhsulu sözün əsl mənasında nasistlərin burnunun altından oğurladılar. Və 1943-cü ilin fevralında Norveçə yerləşdirilən İngilis komandoları yerli müqavimət döyüşçülərinin köməyi ilə zavodu sıradan çıxardılar.

Almaniyanın nüvə proqramı təhlükə altında idi. Almanların bədbəxtlikləri bununla bitmədi: Leypsiqdə eksperimental nüvə reaktoru partladı. Hitler uran layihəsini yalnız başlatdığı müharibənin sonuna qədər super güclü silah əldə etmək ümidi qaldığı müddətcə dəstəklədi. Speer Heisenberg-i dəvət etdi və ondan açıq şəkildə soruşdu:



"Biz bombardmançıdan asılı ola bilən bir bombanın yaradılmasını nə vaxt gözləyə bilərik?" Alim dürüst idi: "İnanıram ki, bunun üçün bir neçə il gərgin iş lazım olacaq; hər halda, bomba hazırkı müharibənin nəticələrinə təsir göstərə bilməyəcək." Almaniya rəhbərliyi rasional olaraq qərara gəldi ki, işləri tələsdirməyin mənası yoxdur. Alimlər narahat olmadan çalışsınlar - bəlkə də növbəti müharibəyə vaxtında hazır olacaqlar.

Nəhayət, Hitler elmi, istehsalat və maliyyə resurslarını yalnız yeni silah növlərinin yaradılmasında ən tez nəticə verəcək layihələrdə cəmləşdirmək qərarına gəldi. Uran layihəsinin dövlət tərəfindən maliyyələşdirilməsi məhdudlaşdırıldı. Buna baxmayaraq, alimlərin işi davam edirdi.

1944-cü ildə Heyzenberq Berlində artıq xüsusi bunker tikilən böyük reaktor obyekti üçün tökmə uran lövhələri aldı. Zəncirvari reaksiyaya nail olmaq üçün son sınaq 1945-ci ilin yanvarına planlaşdırıldı, lakin yanvarın 31-də bütün avadanlıqlar tələsik söküldü və Berlindən İsveçrə sərhədi yaxınlığındakı Haygerloch kəndinə göndərildi, burada fevralın sonuna qədər yerləşdirilmədi. Reaktorda 10 tonluq qrafit moderator/neytron reflektoru ilə əhatə olunmuş ümumi çəkisi 1525 kq olan 664 uran kubu var idi. 1945-ci ilin martında nüvəyə əlavə olaraq 1,5 ton ağır su əlavə edildi. Martın 23-də Berlinə reaktorun işə başladığı barədə məlumat verilib.

Ancaq sevinc vaxtından əvvəl idi - reaktor kritik həddə çatmadı və zəncirvari reaksiya uğursuz oldu. Yenidən hesablamalar göstərdi ki, uranın tərkibini ən azı 750 kq artırmaq lazımdır ki, bu da ağır suyun kütləsini mütənasib şəkildə artırır. Amma heç birinin ehtiyatı yox idi. Üçüncü Reyxin sonu qaçılmaz olaraq yaxınlaşırdı. Aprelin 23-də Amerika qoşunları Haygerloxa daxil oldular. Reaktor sökülərək ABŞ-a daşındı.



### Başqa ölkələrdə isə

Almanlarla paralel olaraq İngiltərə və ABŞ atom silahlarının hazırlanmasını davam etdirirdilər. Hər şey 1939-cu ilin sentyabrında Albert Eynşteynin ABŞ prezidenti Franklin Ruzveltə göndərdiyi məktubla dəyişdi. Məktubun təşəbbüskarları və mətnin çox hissəsinin müəllifləri macar mühacir fizikləri Leo Szilard, Eugene Wigner və Edward Teller idi. Məktubda prezidentin diqqəti faşist Almaniyasının tezliklə atom bombasının əldə edilməsinə gətirib çıxara biləcək fəal tədqiqatlarına yönəldilib.

SSRİ-də həm müttəfiqlər, həm də düşmən tərəfindən görülən işlər haqqında ilk məlumat hələ 1943-cü ildə kəşfiyyat tərəfindən Stalinə çatdırıldı. Dərhal oxşar işin İttifaqda yerləşdirilməsi barədə qərar qəbul edildi. Beləliklə, sovet atom layihəsi başladı. Tapşırıqlar təkcə alimlərə deyil, həm də nüvə sirlərinə yiyələnmək prioritet məsələyə çevrilən kəşfiyyatçıların üzərinə qoyulmuşdu. ABŞ-da atom bombası işi haqqında əvəzsiz kəşfiyyat məlumatları Sovet nüvə layihəsinin irəliləməsinə böyük kömək etdi. İştirak edən elm adamları dalana dirənmiş tədqiqatlardan qaça bildilər və bununla da son məqsədə çatmağı əhəmiyyətli dərəcədə sürətləndirdilər.

### İlk atom bombasını yaradan adam

Həmçinin 1943-cü ildə ABŞ-da nəzəri fizik, nüvə fizikası, Harvard məzunu, Kaliforniya Universitetinin və Kaliforniya İnstitutunun professoru Julius Robert Oppenheymerin rəhbərlik etdiyi Manhetten Layihəsi başladı. Gənc və iddialı alim layihə üçün xüsusi olaraq yaradılmış Los Alamos Milli Laboratoriyasının ilk direktoru təyin edildi. Ən yaxşı nüvə fizikləri komandası ilə birlikdə Oppenheimer 16 iyul 1945-ci ildə dünyanın ilk atom bombasını hazırladı və uğurla sınaqdan keçirdi.

Eyni laboratoriyada Robert Oppenheimerin rəhbərliyi altında məşhur Kiçik Oğlan və Kök Adam atom bombaları istehsal edildi. Yarandıqdan cəmi bir ay sonra Little Boy və Fat Man Yaponiyanı bombalamaq üçün istifadə edildi. Təbii ki, sovet rəhbərliyi alman atom tədqiqatlarına biganə qala bilməzdi. Müharibədən sonra Almaniyaya bir qrup sovet fiziki, o cümlədən gələcək akademiklər Artsimoviç, Kikoin, Xariton və Şelkin göndərildi. Hamısı Qırmızı Ordu polkovniklərinin geyimində kamuflyaj edilmişdi. Əməliyyata istənilən qapını açan Daxili İşlər Xalq Komissarının birinci müavini İvan Serov rəhbərlik edirdi.

Lazım olan alman alimlərindən əlavə, "polkovniklər" tonlarla metal uran tapdılar ki, bu da Kurçatovun fikrincə, Sovet bombası layihəsini ən azı bir il qısaltdı. Amerikalılar layihə üzərində işləyən mütəxəssislərlə birlikdə Almaniyadan da xeyli miqdarda uran götürüblər. SSRİ-yə fiziklər və kimyaçılarla yanaşı mexaniklər, elektrik mühəndisləri,



şüşəüfürənlər də göndərilirdi. Bəziləri hərbi əsir düşərgələrində tapıldı. Ümumilikdə SSRİ-də atom layihəsi üzərində ən azı 1000 alman mütəxəssisi çalışıb. Fon Arden laboratoriyası, uran sentrifuqası, Kayzer Fizika İnstitutunun avadanlıqları, sənədləri və reagentləri Berlindən çıxarıldı. Atom layihəsi çərçivəsində A, B, C və G laboratoriyaları yaradıldı və Almaniyadan olan alimlər onun elmi rəhbərləri oldular.

SSRİ-də mürəkkəb problemlərin effektiv həllini tapmağa qadir olan tədqiqatçı və istedadlı təşkilatçı kimi tanınan doktor Riel sovet atom layihəsində əsas fiqur oldu. Sovet bombasının uğurlu sınaqlarından sonra o, Sosialist Əməyi Qəhrəmanı adına və Stalin mükafatına layiq görülüb.

Obninskdə yaradılmış laboratoriyanın işinə nüvə tədqiqatlarında qabaqcıl professor Rudolf Pose rəhbərlik edirdi. Onun rəhbərliyi ilə sürətli neytron reaktorları hazırlanmış, Sovet İttifaqında ilk atom elektrik stansiyası tikilmiş, sualtı reaktorların layihələndirilməsinə başlanılmışdır. Obninsk obyekti A.I.-nin yaradılması üçün əsas oldu. Leipunski Fizika və Energetika İnstitutu. Poz 1957-ci ilə qədər Suxumidə, sonra Dubnadakı Birgə Nüvə Tədqiqatları İnstitutunda işləyib.

### Xirosima və Naqasakinin atom bombası

6 avqust 1945-ci il səhəri Amerikanın B-29 bombardmançısı "Enola Gay" (pilotu polkovnik Paul Tibbets[1]) Yaponiyanın Xirosima şəhərinə "Little Boy" uran atom bombasını atdı. Partlayışın məhsuldarlığı, müxtəlif hesablamalara görə, trotil ekvivalentinin 13-18 kilotonu arasında idi. Üç gün sonra, 9 avqust 1945-ci ildə pilot Çarlz Svini tərəfindən Naqasakiyə plutonium atom bombası "Kök adam" atıldı. Onun məhsuldarlığı 15 ilə 22 kiloton arasında dəyişən əhəmiyyətli dərəcədə böyük idi. Bu, bombanın daha təkmil dizaynı ilə bağlı idi.

Hücumlar nəticəsində insan tələfatını təxmin etmək olduqca çətindir. Xirosimada partlayış və onun nəticələrindən 140.000 insanın öldüyü güman edilir; Naqasaki üçün oxşar təxmin 74.000-dir. 1946-cı ilin fevralında Amerika işğal ordusunun Yaponiyadakı qərargahı tərəfindən dərc edilmiş bu rəqəmlərə 1946-cı ilin fevralından sonra radiasiya xəstəliyindən və partlayışlar nəticəsində radiasiyaya məruz qalmanın digər təsirlərindən ölənlər daxil deyil. Bombardmanlarla nümayiş etdirilən nüvə silahının müstəsna dağıdıcı gücü ABŞ və SSRİ arasında nüvə silahı yarışının başlanğıc nöqtəsi oldu və sonradan digər ölkələr də qoşuldular.

**V.SALAH**

# Elektrik avtomobillərinin müsbət və mənfi tərəfləri

ARAŞDIRMA

***Son illərdə dünyada enerji səmərəliliyi, ekoloji davamlılıq və texnoloji yeniliklər kontekstində elektrik avtomobillərinə maraq kəskin şəkildə artıb. Qlobal miqyasda iqlim dəyişikliyi, karbon emissiyalarının azaldılması və neft resurslarının tükənməsi kimi problemlər dövlətləri və şirkətləri alternativ nəqliyyat modellərinə yönəldib. Bu baxımdan, elektrik avtomobilləri təkcə texnoloji yenilik deyil, həm də "yaşıl planet" strategiyasının əsas tərkib hissəsinə çevrilib. Beynəlxalq Enerji Agentliyinin (IEA) 2024-cü il hesabatına görə, dünyada elektrik avtomobillərinin sayı artıq 40 milyonu keçib. Çin, ABŞ və Avropa İttifaqı bu sahədə aparıcı mövqedədir. Çin təkcə 2023-cü ildə 8 milyondan çox elektrik avtomobili istehsal edib. Bu, qlobal bazarın təxminən 60 faizinə bərabərdir.***







Elektrik avtomobillərinin müsbət tərəfləri aşağıdakılardır:

**1. Ekoloji təmizlik və iqlim dəyişikliyi ilə mübarizə**

Ənənəvi benzin və dizel mühərrikli avtomobillər atmosferə karbon qazı ($CO_2$), azot oksidləri və digər zərərli tullantılar buraxır. Elektrik avtomobilləri isə bu tullantıların sıfıra enməsini təmin edir. Bu, şəhərlərdə hava keyfiyyətinin yüksəlməsinə, həmçinin səs-küyün azalmasına səbəb olur. Məsələn, Norveçdə elektrik avtomobillərinin payı artıq 80 faizə çatıb və bu, Oslo kimi şəhərlərdə havanın keyfiyyətini nəzərəçarpacaq dərəcədə yaxşılaşdırıb.

**2. Enerji səmərəliliyi və qənaət**

Elektrik mühərrikləri daxili yanma mühərriklərinə nisbətən enerjidən təxminən 3-4 dəfə daha səmərəli istifadə edir. Bu, eyni məsafəni qət etmək üçün daha az enerji sərf olunması deməkdir. Beləliklə, enerji israfı azalır, həm də ölkələrin enerji asılılığı azalmağa başlayır.

**3. İstismar və texniki baxım xərclərinin azlığı**

Elektrik avtomobillərinin mühərriki mexaniki cəhətdən daha sadədir — burada nə yağ dəyişimi, nə silindr, nə də yanacaq filtri var. Bu, təmir və texniki xidmət xərclərini əhəmiyyətli dərəcədə azaldır. Bundan başqa, elektrik enerjisi adətən benzin və dizeldən qat-qat ucuzdur.

**4. Səssiz işləmə və yüksək komfort**

Elektrik mühərriklərinin demək olar ki, səssiz işləməsi sürücülük təcrübəsini daha rahat və sakit edir. Bu xüsusilə sıx şəhər mühitində həm ekoloji, həm də psixoloji baxımdan əhəmiyyətli üstünlük sayılır.

**5. Dövlət təşviqləri və güzəştlər**

ABŞ, Avropa və Asiyanın bir çox ölkələrində dövlətlər elektrik avtomobillərinin alınmasını stimullaşdırmaq üçün vergi endirimləri, pulsuz parklanma və ya güzəştli kreditlər təqdim edir. Məsələn, Avropada bəzi ölkələrdə belə avtomobil alanlara 5000–10 000 avro arasında subsidiya verilir. Azərbaycan da bu istiqamətdə müəyyən addımlar atıb: 2022-ci ildən etibarən elektrik avtomobillərinin idxalı və satışı ƏDV-dən azaddır, bu da yerli bazarda qiymətləri bir qədər aşağı salıb.

Elektrik avtomobillərinin mənfi tərəfləri isə aşağıdakılardır:

**1. Yüksək ilkin qiymət**

Elektrik avtomobillərinin ən bahalı hissəsi batareyadır. Onun istehsalında istifadə olunan litium, nikel, kobalt kimi metalların





qiyməti yüksəkdir. Bu səbəbdən elektrik avtomobilləri hələ də ənənəvi modellərlə müqayisədə 20–30 faiz daha bahadır.

Bununla belə, texnologiyanın inkişafı və kütləvi istehsalın artması qiymətlərin tədricən aşağı düşəcəyini göstərir. Məsələn, Tesla və BYD kimi şirkətlər artıq 20 min dollardan aşağı qiymətli modellər təqdim etməyi planlaşdırır.

**2. Şarj infrastrukturu problemi**

Dünyanın bir çox ölkəsində şarj stansiyalarının sayı hələ də kifayət deyil. Azərbaycanda isə bu infrastruktur hələ ilkin mərhələdədir. Hazırda ölkədə əsasən Bakıda və bəzi magistral yollarda cəmi bir neçə onlarla publik şarj məntəqəsi var. Regionlarda bu imkan demək olar ki, yoxdur. Bu isə uzun məsafəli səyahətləri çətinləşdirir və istifadəçilərdə "enerji bitmə qorxusu" yaradır.

**3. Şarj müddətinin uzunluğu**

Benzinlə doldurma 3-5 dəqiqə çəkirsə, orta səviyyəli bir elektrik avtomobilinin tam şarjı 30 dəqiqədən 8 saata qədər vaxt aparır. "Sürətli şarj" texnologiyaları bu müddəti azaltsa da, bu stansiyalar hələ hər yerdə mövcud deyil.

**4. Akkumulyatorun ömrü və ekoloji təsiri**

Batareyalar təxminən 8–10 il sonra gücünü itirir və onların dəyişdirilməsi çox bahadır. Həmçinin, utilizasiya prosesi də ekoloji risk yaradır, çünki batareyalarda ağır metallar və toksik maddələr mövcuddur.

Bununla belə, son illərdə "ikinci həyat batareyaları" konsepti inkişaf edir — yəni köhnə avtomobil batareyaları enerji saxlama sistemlərində təkrar istifadə olunur.

**5. İstehsalın özünün ekoloji izi**

Bir çox mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, elektrik avtomobilləri "təmizdir", amma onların istehsalı təmiz deyil. Xüsusilə batareya istehsalı zamanı çoxlu enerji sərf olunur və bu, ətraf mühitə ciddi təsir göstərə bilir.

Məsələn, bir 70 kWh-lıq batareya istehsalı zamanı təxminən 8–10 ton CO emissiyası yaranır. Lakin bu avtomobilin istismar dövründə yaratdığı az tullantılarla müqayisədə, ümumi ekoloji balans yenə də müsbət qalır.

## Azərbaycan kontekstində vəziyyət

Azərbaycan üçün elektrik avtomobilləri həm iqtisadi, həm də ekoloji baxımdan yeni bir mərhələni ifadə edir. Ölkənin elektrik enerjisi potensialı, xüsusilə bərpa olunan enerji (külək və günəş) layihələrinin artması bu keçidi asanlaşdıra bilər.

Bakı küçələrində artıq Tesla, BYD, NIO kimi modelləri görmək mümkündür. "Azərenerji" və "SOCAR" da gələcəkdə şarj infrastrukturunun genişləndirilməsi üçün planlar hazırlayır. Amma hələlik, şarj şəbəkəsinin zəifliyi, texniki xidmət mərkəzlərinin azlığı və qiymətlərin yüksəkliyi əsas maneələr olaraq qalır.

Araşdırmalarımızdan belə məlum olur ki, elektrik avtomobilləri təkcə bir nəqliyyat növü deyil, həm də yaşıl enerjiyə keçidin simvoludur. Onlar şəhərləri daha sakit, havası daha təmiz, gələcəyi isə daha sabit etmək potensialına malikdir. Bəli, bu texnologiyanın hələ bir çox çatışmazlıqları var — lakin tarix göstərib ki, hər bir inqilab ilkin mərhələdə bahalı, çətin və qeyri-mükəmməl olur. Yəqin ki, yaxın onillikdə elektrik avtomobilləri artıq "alternativ" yox, əsas nəqliyyat vasitəsi olacaq. Və bu keçid, istər iqtisadi, istər ekoloji, istərsə də mədəni baxımdan, bəşəriyyətin ən mühüm dönüş nöqtələrindən biri kimi tarixə düşəcək.

***İlkin Məmmədkərimov***

# Əli Kərimliyə evi Ramiz Mehdiyevin bağışladığı üzə çıxdı



*“Boz kardinal”a bağlı şəxslər arasında cəbhəçilər və müsavatçılar çoxluq təşkil edir*

Bir qədər əvvəl Azərbaycanda fəaliyyət göstərən Qərbin bir sıra media casuslarının, xüsusilə də Meydan TV-nin, “Abzas Media”-nın və “Toplum” TV-nin bəzi əməkdaşlarının həbs edilməsindən sonra insanı dəhşətə gətirən faktlar ortaya çıxdı. Bəlli oldu ki, jurnalist adı altında gizlənən bu şəxslər Azərbaycanın milli və dövlətçilik maraqlarına zərbə vurmaq üçün ABS-ın “Beynəlxalq Inkisaf Agentliyi” (USAID), “Milli Demokratiya Fondu” (NED), “Avropa Demokratiyaya Yardım Fondu” (EED), “Internews”, “FreedomNow”, “Qlobal Arasdırmacı Jurnalistika Səbəkəsi” (Global Investigative Journalism Network), “Amerika Beynəlxalq Təhsil Surası” (American Councils for International Education), Cexiyanın “Praqa Vətəndas Cəmiyyəti Mərkəzi” (PCSC), “People in Need” (PIN), “Avropa Ittifaqı Mustəqil Media ucun” proqramı (EU4 Independent Media), “Sərq Tərəfdaslıgı Vətəndas Cəmiyyəti Forumu” (EPCSF), “Niderland Helsinki Komitəsi”, “Norvec Helsinki Komitəsi”, “Avropa Jurnalistika Fondu” (Journalizmfund Europe), “Yeni Demokratiya Fondu” (New Democracy Fund), “Forum 2000”, “German Marsal” Fondu və digərləri “demokratik inkisafa dəstək vermək” adı altında böyük məbləğdə pullar alıblar. Görün, Qafqazın bir ölkəsində ”demokratiya carçısı” rolunda çıxış etmək üçün nə qədər qurum növbəyə dayanıb və bundan da Meydan TV-nin, “Abzas Media”-nın və “Toplum” TV-nin əməkdaşları maksimum dərəcədə istifadə etməyə cəhd göstəriblər. Artıq onların bəzilərinə məhkəmənin qərarı ilə hökm oxunub. Bu, öz yerində. Ancaq istintaq öncəsi və məhkəmə prosesi zamanı dağıdıcı müxalifətə bağlı saytlarda, sosial şəbəkə hesablarında media casuslarının həbs olunmasından ciddi narahatçılıq keçirən yazılar, statuslar paylaşılırdı. Bu da onu təsdiq edirdi ki, alınan çirkli pullardan Əli Kərimliyə, Cəmil Həsənliyə, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbərə, Arif Hacılıya pay düşüb və həmin payın qarşılığında nəsə etməyə çalışırdılar. Təəssüf ki, yenə də sudan quru çıxmağı bacardılar, həbs olunmadılar. Ancaq Ramiz Mehdiyev ətrafında aparılan istintaq araşdırması onu deməyə əsas verir ki, bu dəfə dağıdıcı müxalifətin satqın və xəyanətkar simasızları qanunun sərt zərbəsindən xilas ola bilməyəcəklər. Çünki ortaya təkzib olunmaz faktlar və sübütlüra qoyulan.

Ramiz Mehdiyevin köməkçisi olmuş Eldar Əmirovun həbsi isə bir sıra qaranlıq görünən məsələlərə aydınlıq gətirəcək. İddialara görə, Eldar Əmirovun əlində mühüm sənədlər və keçmiş şefinin dağıdıcı müxalifətlə əlaqələrinə dair gizli məlumatlar var. Bildirilir ki, əgər Ramiz Mehdiyevlə, eləcə də Əli Kərimli və İsa Qəmbərlə Eldar Əmirov arasında üzləşmə baş verərsə, dəstə tam şəkildə ifşa olunacaq. Məlumata görə, bu təhlükəni tam şəkildə anlayan Əli Kərimli İsa Qəmbərlə görüşüb. Müsavatın qərargahında baş tutan görüşdə vəziyyət təhlil olunub və çıxış yollar müzakirə olunub. Tərəflər istintaqda bir -birinin sözlərinin, ifadələrinin üst-üstə düşməsi üçün bir daha ötüb keçənlərə nəzər salıb, dəqiqləşdirmələr aparıblar.

### Əli Kərimliyə verilən pulların məbləği açıqlandı

Sual oluna bilər ki, Ramiz Mehdiyev və dəstəsi ilə Əli Kərimlini hansı ortaq maraqlar birləşdirib? Bunun cavabını vermək üçün uzun-uzadı araşdırmalar aparmağa və detalları tədqiq etməyə ehtiyac yoxdur. Ramiz Mehdiyev və dəstəsi Əli Kərimli, İsa Qəmbər və digər dağıdıcı müxaliflərin timsalında müəyyən gücə malik “xoxan” obrazı formalaşdırmağa çalışıb. Nəticədə “xoxan”lardan istifadə etməklə öz üstünlüyünü nümayiş etdirməyə, eləcə də biznesini daha da inkişaf etdirməyə ümid edib. Nəzərə almaq lazımdır ki, dəfələrlə dağıdıcı müxalifət icazəsi aksiyalar keçirib və bu zaman polislə qarşıdurmalar yaradıb. Həmin vəziyyətdən çıxış edərək Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli və digərləri Ramiz Mehdiyevi sözlə ittiham edib, onu aksiyalara icazə verməməkdə günahlandırmışlar. Halbuki, “sərbəst toplaşmaq azadlığı haqqında qanun”a görə, hər hansı tədbirlərin, o cümlədən aksiyaların təşkilinə və keçirilməsinə icazəni Bakı Şəhər İcra Hakimiyyəti verməlidir. Bunu söz yox ki, özünü hüquqşünas kimi təqdim etməyə çalışan AXCP sədri Əli Kərimli də bilməmiş deyil. Ancaq Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli bu məsələdə R.Mehdiyevin adını hallandırmaqla, onu əsas fiqur kimi təqdim etməyə çalışıblar. Yeni cəmiyyətə alışmaq istəyiblər ki, R.Mehdiyev əsas güc mərkəzidir və onunla hesablaşmaq lazımdır.

Fikir verin, R.Mehdiyev işindən uzaqlaşdırılacağını anladığı məqamda belə “xoxan”lardan istifadə etməyə cəhdlər göstərib. 2019-cu ilin oktyabrın 19-da Milli Şura və AXCP Bakı şəhərində icazəsiz aksiya keçirməyə çalışdılar. Məqsəd və niyyət heç şübhəsiz ki, R.Mehdiyevin vəzifəsindən uzaqlaşdırılmasının qarşısını almaq oldu. Lakin xəyalları gerçəkləşmədi. 2019-cu ilin oktyabrın 23-də R.Mehdiyev Prezident Administrasiyasının rəhbəri vəzifəsindən çıxarıldı.

Diqqətçəkən məqam ondan ibarətdir ki, R.Mehdiyevin vəzifəsindən kənarlaşdırılmasından ötən 6 il ərzində Milli Şura, AXCP və Müsavat bir dəfə də etiraz aksiyaları keçirməyiblər. Sual olunur, 2019-cu ilin oktyabrına qədər az qala, hər həftə müxtəlif səpkili piketlər, mitinqlər, küçə yürüşləri təşkil edən və keçirməyə cəhdlər göstərən dağıdıcı müxalifət nədən son 6 ildə aksiyalar planlaşdırmayıb? Heç şübhəsiz ki, səbəbi artıq dayaqlarının sıradan çıxarılmasıdır. Əminliklə demək olar ki, bundan sonra dağıdıcı müxalifət aksiyalar keçirmək xəyalına da düşməyəcək. Bir müddət sonra isə onlar heç bir işə yaramadıqlarını, həm də cəmiyyət tərəfindən qətiyyətlə rədd edildiklərini anlayıb, özləri-özlərini buraxacaqlar. Digər tərəfdən dağıdıcı müxalifətin fəaliyyətinə xitam verilməsi üçün hüquqi baza yaranıb. Tədricən sübuta yetirilir ki, Milli Şura, AXCP və Müsavat funksionerlərinin dövlət çevrilişinə cəhddə və dövlətə xəyanətdə ittiham olunaraq həbs edilən Ramiz Mehdiyevlə ortaq iş birlikləri olub. “Siyasi partiyalar haqqında qanuna” eləcə də digər qanunvericilik aktlarına görə siyasi partiyalar hakimiyyətin zorla ələ keçirilməsinə cəhdlər göstərərsə, o zaman həmin siyasi partiyanın fəaliyyətinə xitam verilir. Bu baxımdan ya Ə.Kərimli, İsa Qəmbər özləri sakitcə prəhbərlik etdikləri partiyaların buraxıldığını elan edəcəklər, ya da qanun onlarla məhkəmə zallarında sərt formada danışmalı olacaq. Bu halda onların Ramiz Mehdiyevin dəstəsi ilə geniş əlaqələr quraraq dövlətə xəyanət etdikləri faktlarla ortaya qoyulacaq.

### Əli Kərimliyə evin verilməsi səbəbsiz deyildi

Mətbuatdan məlum olduğu kimi, Ramiz Mehdiyev və dəstəsi vəzifə səlahiyyətlərindən istifadə edərək, özlərinə böyük biznes imperiyası qurublar. Həmin vəsaitlərdən bir qismini dağıdıcı müxalifətə və xaricdəki antimilli ünsürlərə ötürməklə, daha rahat formada talançılıqlarını davam etdirməyə ümid ediblər. Məlumatlara görə, R.Mehdiyev və dəstəsi xaricdəki antimilli ünsürlər 48 milyon, AXCP, Müsavat kimi partiyaların rəhbərlərinə və onların trollarına 18 milyon manat maliyyə yardımları göstəriblər. AXCP üzvü olan və Əli Kərimliyə yaxınlığı ilə seçilən şəxsin isə bizə dediyinə görə, Ramiz Mehdiyevlə Əli Kərimli arasında sıx əlaqələr əsasən 2000-ci il parlament seçkiləri ərəfəsi qoyulub. O zaman R.Mehdiyevin inandığı şəxslərdən biri Ə.Kərimlinin Xəqani küçəsindəki ofisində görüşüb. Bu zaman Ə.Kərimliyə nağd şəkilində ehtiyaclarının qarşılanması üçün 1 milyon 225 min ABŞ dolları verilib. R.Mehdiyevin adamı ilə Əli Kərimli arasında isti münasibətləri davam etdirmək razılığı əldə olunub. Sonrakı mərhələdə hər ay Ə.Kərimliyə və “Azadlıq” qəzetinə maliyyə yardımları göstərilib. Ən əsası isə Nərimanov rayonu “Montin” bazarı deyilən ərazidən və Yasamal rayonu İnşaatçılar metrosunun arxasında Mehdi Salamzadə küçəsi 578745 -ci binadan Əli Kərimliyə mənzillər bağışlanıb. Dünən isə daha bir maraqlı məlumat əldə edə bildik. Belə ki, Milli Şuranın üzvü Gültəkin Hacıbəyli deputat olduğu dönəmdə tez-tez Ramiz Mehdiyevin tapşırığı ilə Ə.Kərimli ilə görüşüb. Deyilənlərə əsasən demək olar ki, Ə.Kərimlinin R.Mehdiyevin dəstəsinə sədaqətli olmasında G.Hacıbəylinin xüsusi rolu olub. Məhz bu fəaliyyəti yüksək dəyərləndirən R.Mehdiyev sahibi olduğu binalarda Gültəkin Hacıbəyliyə iki ev hədiyyə edilib: “Söhbət Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi 251 A ünvanında yerləşən çoxmərtəbəli yaşayış kompleksindən gedir. Həmin binaların Ramiz Mehdiyevə məxsus olması heç kəsə sirr deyildir. Bu, həm sənədlərlə, həm də həmin binada yaşayan sakinlərin ifadələri ilə öz təsdiqini tapır. El arasında da sözügedən tikililər “Ramiz Mehdiyevin evləri” adlandırılır. Həmçinin Ramiz Mehdiyevə məxsus olduğu deyilən bir neçə şirkətin də hüquqi ünvanı məhz bu küçədə yerləşən mənzil göstərilir”.

Məlumatda o da bildirilir ki, R.Mehdiyev Gültəkin Hacıbəylini “mükafatlandırmaq” məqsədi ilə bina tikilən ərəfədə, 2005-ci ildə ona iki mənzil hədiyyə edib. Bina istismara verilən tarixdən G.Hacıbəyli orada yaşasa da, evin sənədləşməsi və çıxarışların alınması 2008-ci ilə təsadüf edir. Həmin mənzillərdən biri Gültəkin Hacıbəylinin atası Yunis Hacıyevin adınadır. Söhbət həmin ünvanda yerləşən 179.4 kv.m sahəsi olan 183 nömrəli mənzildən gedir. Əldə edilən məlumata görə, G.Hacıbəyli sözügedən mənzili hazırda yüksək məbləğə kirayə verib.Eyni binanın 13-cü mərtəbəsində G.Hacıbəyliyə “xüsusi xidmətlərinə” görə, “boz kardinal” tərəfindən daha bir mənzil bağışlanıb. Bu mənzil isə Hacıbəylinin bacısı Aytən Hacıyevanın adına rəsmiləşdirilib. 178.18 kv.m sahəsi olan 4 otaqlı mənzildə G.Hacıbəyli özü tək yaşayır”, – məlumatda vurğulanıb. Mətbuatda yayılan xəbərlərdə sözügedən MTK-nın də Ramiz Mehdiyevə məxsus olduğu qeyd olunur. Bina 2017-ci ilə qədər Topaz MTK-nın idarəçiliyində olub. 2017-ci ildən isə kompleks Nəsimi 11 MMC tərəfindən idarə olunur.

Bütün bunlarda bir həqiqət var: bu şəbəkənin görünən və görünməyən üzvlərinin hamısı ifşa olunacaq. Amma onların özlərinin aidiyyəti orqana gəlib istintaqla əməkdaşlıq etməsi daha düzgün addım olardı. Digər tərəfdən, bir çoxlarının fəaliyyəti də, niyyətləri də, əməlləri də bəlli olduğuna görə, tövbə qapısının hələ də açıq olduğunu unutmamalıdırlar. Xalqdan üzr istəmək də heç zaman gec deyil. Əks halda onları xalqın qəzəbi, ədalətin hökmündən heç bir qüvvə xilas edə bilməyəcək.

**İLHAM ƏLİYEV**

# “Enerji içkiləri sağlamlıq üçün risklidir”

***“Gənclər arasında enerji içkilərinin artan istifadəsi sadəcə qısa müddətli “enerji artımı” ilə bitmir". Bu sözləri SİA-ya açıqlamasında qida mühəndisi, nutrisioloq Fərid Səfərov deyib.***




EKSPERT AÇIQLADI

Onun sözlərinə görə, bu içkilərin uzunmüddətli sağlamlıq riskləri həm fiziki, həm də psixoloji baxımdan ciddi ola bilər: ”Enerji içkilərindəki yüksək kofein və şəkər miqdarı ürəkdamar sisteminə mənfi təsir göstərir. Ürək döyüntüsünü artırır, taxikardiya, aritmiya və yüksək təzyiq riskini yaradır. Uzunmüddətli istifadə ürəyin yükünü artırır və xüsusən də yetkinləşmə mərhələsində olan gənclərdə ürək əzələsini zəiflədə bilər. Bəzi hallarda qəfil ürək tutması hadisələri enerji içkiləri ilə əlaqələndirilir. Kofein mərkəzi sinir sistemini stimullaşdırdığı üçün əsəbilik, yuxusuzluq və diqqət dağınıqlığı yarana bilər. Gənclərdə bu, asılılıq effekti formalaşdırır, yeni orqanizm enerjini təmin etmək üçün bu içkilərə öyrəşir. Uzunmüddətli istifadədə isə gərginlik və depressiv hallar müşahidə olunur. Bu içkilərin tərkibindəki yüksək şəkər miqdarı metabolik proseslərə mənfi təsir edir. Bir qutuda 40–60 qramadək şəkər ola bilər ki, bu da piylənmə, insulin müqaviməti və 2-ci tip şəkərli diabet riskini artırır. Həmçinin hormon balansına təsir edərək, xüsusilə yeniyetmələrdə kortizol (stres hormonu) səviyyəsinin yüksəlməsinə səbəb olur. Kofein və digər stimullaşdırıcı maddələr (taurin, guarana və s.) qaraciyər fermentlərinin fəaliyyətini dəyişə bilər. Uzun müddət və yüksək miqdarda qəbul qaraciyərin zədələnməsi və böyrəklərin filtrasiya funksiyalarının pozulması riskini artırır.

Enerji içkilərini spirtlə qarışdırmaq xüsusilə təhlükəlidir. Kofein spirtin sakitləşdirici təsirini maskalayır və bu, spirt zəhərlənməsi ilə yanaşı, riskli davranışların artmasına gətirib çıxarır. Bu cür içkilər barədə övladlarınıza maarifləndirici məlumatlar verin və onları nəzarətsiz qoymayın. Çünki enerji içkilərinin gənclər arasında yayılmasının əsas səbəblərindən biri valideyn nəzarətsizliyi və məlumat çatışmazlığıdır”.

***Günel Fərzəliyeva***

*Milli azadlıq, bir millətin özünü idarə etmək hüququ və gücüdür. Bu o deməkdir ki, dövlət daxilində idarə etmək və qərar qəbul etmək səlahiyyəti bütünlüklə millətə məxsusdur və heç bir şəxsə, qrupa və ya sinfə həvalə edilə bilməz. Milli azadlığı iki əsas elementə bölmək olar: milli suverenlik və müstəqillik. Milli azadlıq, müstəqillik ölkənin xarici hakimiyyətin nəzarəti və ya rəhbərliyi altında olmadan özünü idarə etmək qabiliyyətidir. Vahid, bölünməz, ayrılmaz və qeyd-şərtsiz ifadə gücü kimi görünən müstəqillik dövlətin hüquqi meyarıdır.*




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Azadlığı istəmirəm qram-qram...






Azadlığın ən birinci şərti insanın, dövlətin heç bir məhdudiyyətə və məcburiyyətə məruz qalmadan öz qərarlarını vermək, hərəkət etmək və istədiyi kimi düşünmək qabiliyyətidir. Bu məfhum başqalarının hüquqlarına xələl gətirməmək şərti ilə əxlaqi və hüquqi qaydalarla müəyyən edilmiş şərtdir. Necə deyərlər, bizim azadlığımız başqasının azadlığının başladığı yerdə bitir. Azadlıq həm də öz əməllərinə görə məsuliyyət daşımaq deməkdir və bu həm daxili, həm də xarici amillərlə formalaşır.

Cəmiyyətdə ən yüksək azadlığın, bərabərliyin və ədalətin davamlı olaraq bərqərar olması və qorunub saxlanması yalnız tam və mütləq milli suverenliyin bərqərar olmasından asılıdır. Ona görə də azadlığın, bərabərliyin, ədalətin təməli milli suverenlikdir. Azadlığın ilkin şərti müstəqillikdir, çünki bir insanın və ya xalqın məcburiyyət olmadan öz qərarlarını verə bilməsi üçün yad gücün nəzarətindən azad olmalıdır. Müstəqillik bu nəzarətsiz idarəçiliyə imkan verməklə azadlığın əsasını təmin edir.

Suverenlik dövlətin öz ərazisi və xalqı üzərində ali, qeyri-məhdud və bölünməz hakimiyyətidir. Bu səlahiyyət qanunlar qəbul etmək, qərarlar qəbul etmək və onları həyata keçirmək səlahiyyətlərini özündə cəmləşdirir və onu dövlətin daxili işlərində ali orqan edir. Eyni zamanda, suverenlik dövlətin müstəqilliyini və xarici siyasətdə öz qərarlarını qəbul etmək qabiliyyətini ifadə edir. Yəni, suverenliyin mənbəyi dövləti idarə edən şəxs və ya qrup deyil, millətin özüdür. Bu prinsip suverenliyin qeyd-şərtsiz millətə məxsus olduğunu təsdiqləyir.

Milli azadlığın və suverenliyin gözlənilən və gözlənilməyən xarici təhlükələrə qarşı qalxanı olmalıdır. Çünki bir dövlətin azadlığı, suverenliyi işğalçı siyasətinə ziddir və bu siyasəti yürüdənlər üçün həmin dövlət bariz təhlükədir. İşğal bir millətin ərazisinin başqa bir dövlət tərəfindən zorla ələ keçirilməsidir ki, biz bu vəziyyətin ən ağırını yaşadıq. Bu, həmin ərazidə yaşayan insanların azadlığının, müstəqilliyinin və suverenliyinin itirilməsi deməkdir, eyni zamanda milli kimliyə, mədəniyyətə və həyat tərzinə ciddi mənfi təsir göstərir. 30 ilə iki müharibə görmüş, 30 illik zaman kəsiyində müharibə şəraitində yaşamış, illərlə çadır şəhərciyində yaşayan, öz evindən, yurdundan didərgin düşən 1 milyondan artıq insandan soruşmaq kifayətdir ki, söyləsin, işğal nə deməkdir...

İşğal bir millətə, dövlətə siyasi, sosial, mədəni və iqtisadi sahələrdə saysız-hesabsız ziyan vurur, işğal cəmiyyəti yoxsullaşdırır, onun gəlirlərini, maddi təminatını itirməsinə səbəb olur, işğal bir dövlətin resurslarını istismar edir, münaqişə və zorakılığa gətirib çıxarır, ölkəni beynəlxalq səviyyədə təcrid edir. İşğal edilmiş bir xalq yurd-yuvalarından didərgin düşür, insan və mal itkisinə məruz qalır, işğala məruz qalan ərazidəki insanlar ən fundamental insan hüquqlarından məhrum olurlar. İşğal həm də bir millətin ruhuna xələl gətirir, gələcəyə olan ümidləri qırır, sosial-mənəvi travmaya səbəb olur.

İşğal edilmiş ölkənin iqtisadi çöküşü başlayır, işğalçı güclər ölkənin təbii ehtiyatlarından və iqtisadi imkanlarından öz faydalarına istifadə edərək yoxsullaşdırır. İşğal altında olan millət öz müqəddəratını təyin etmək hüququndan məhrum qalır, siyasi təzyiq və təqiblər altında yaşayır. Sosial və mədəni kimlik itirilir, işğalçı güclər yerli mədəniyyəti və kimliyi məhv etməyə cəhd edərək sosial dəyərləri və ənənələri dəyişdirməyə çalışır. Mədəni abidələri məhv edirlər, tarixi saxtalaşdırmağa çalışırlar. İşğal bir millətin varlığını təhdid edən ən dağıdıcı qüvvələrdən biridir.

Ərazilərimizin işğala məruz qalması dövlətimizə, millətimizə, ölkəmizə 30 ildə çox zərər vurdu. Təbii resurslarımız işğalçı Ermənistan tərəfindən amansızcasına istismar edildi, milli-mədəni abidələrimiz yerlə yeksan edildi, yurdundan didərgin düşən 1 milyondan artıq insan 30 il çətin şəraitdə yaşadı. İnsanlar işğal altında olan torpaqlarına qayıdacağı günü inamla, ümidlə gözlədilər. Azadlığı can yox, vətən azadlığı ilə ölçənlərin sınağı asan olmadı. Natamam azadlığa razı olmayanların, bütöv Azərbaycanı arzulayanların imtahanı da ağır oldu.

Bu gün o gündür. 5 ildir ki işğaldan azad edilən torpaqlarımızın azadlığının ildönümüdür. O torpaqlar uğrunda canından keçən vətən oğullarının, o oğulları böyüdən ataların, anaların günüdür bu gün. Torpaq, sənin uğrunda can verənlərin sayəsində azad olduğun gündür bu gün. Saysız qəhrəmanlıqları olan saysız igidlərin günü...

Zəfər günün mübarək, Azərbaycan!

***Lalə Mehralı***





SON SƏHİFƏ
SƏS
9 noyabr
2025-ci il

# "Payız və qış uşaqlar üçün risklidir"



***"Hər il payız və qış ayları gəldikdə, uşaqlar arasında öskürək, burun axması, qrip və bronxit kimi xəstəliklər artır. Bəs bunun səbəbi nədir? Soyuq havalarda uşaqlar açıq havada az oynayır, daha çox bağça, məktəb və ev kimi qapalı məkanlarda olur". Bu barədə SİA-ya açıqlamasında pediatr Elşən Tağıyev deyib.***

## Pediatr mühüm məqamlara aydınlıq gətirdi

Onun sözlərinə görə, bu mühitlərdə hava dövranı zəif olduğundan viruslar asanlıqla bir uşaqdan digərinə keçir. Xüsusilə kollektiv yerlərdə bir uşaq xəstələnəndə infeksiya digərlərinə tez yayılır. Payız və qış aylarında hava həm soyuq, həm də quru olur. Quru hava burun və boğazın selikli qişasını qurudur, bu isə orqanizmin təbii qoruyucu baryerini zəiflədir. Nəticədə viruslar burun-udlağa daha asan yerləşir və infeksiya yaradır. Günlərin qısalması ilə günəş işığının miqdarı azalır, bu isə D vitamininin çatışmazlığına səbəb olur. D vitamini immun sistemin əsas dayaqlarındandır. Onun azlığı uşaqları viruslara qarşı daha həssas edir.

Soyuq aylarda uşaqlar daha çox evdə olur, az hərəkət edir və bəzən meyvə-tərəvəz qəbulu da azalır. Qidada vitamin və mineralların azlığı immuniteti zəiflədir və uşağın bədənini müdafiəsiz saxlayır. Məktəb mövsümünün başlaması, erkən oyanmaq və yeni mühit uşaqlarda stress yarada bilər. Yuxu çatışmazlığı və stress immun sistemini zəiflədir, nəticədə viruslara qarşı müqavimət azalır. Bu halların qarşısını almaq üçün gün ərzində təmiz havada az da olsa vaxt keçirmək, bol meyvə və tərəvəzlə qidalanmaq, vitaminlərlə zəngin qidaları yemək, pediatrın məsləhəti ilə D vitamini əlavəsi qəbul etmək, əl gigiyenasına diqqət etmək və otaqları tez-tez havalandırmaq vacibdir. Eyni zamanda uşaqların yetərli yuxu və istirahət alması da çox önəmlidir.

***Günel Fərzəliyeva***

# Bu gün "Qarabağ" - "Neftçi" derbisi olacaq!




***Bu gün Misli Premyer Liqasının XI turunun "Qarabağ" - "Neftçi" oyunu baş tutacaq. "Qarabağ" və "Neftçi" Azərbaycan derbilərində ən böyükhesablı qələbələrini noyabrda qazanıblar. Bu barədə Peşəkar Futbol Liqası statistika açıqlayıb. 2000-ci ildə noyabrın 4-də baş tutan görüşdə "Qarabağ" öz meydanında "Neftçi"yə 0:4 hesabı ilə məğlub olub. 2020-ci noyabrın 8-də "Neftçi"nin ev sahibi olduğu görüşdə isə Ağdam klubu 6:0 hesablı qələbəyə sevinib.***

İlin 12 ayının hər birində derbi baş tutub. 11-ci ay olan noyabrda 11 derbi keçirilib. Ancaq derbilərdən heç biri heç vaxt noyabrın 9-na təsadüf etməyib. "Neftçi" noyabr aylarında baş tutan görüşlərdə daha üstün olub – 6 qələbə, 3 heç-heçə, 2 məğlubiyyət, top fərqi 12-9.

"Qarabağ"ın meydanında noyabrda keçirilən oyunlarda qonaq komandalar daha üstün olub – 3 qələbə, 1 heç-heçə, 1 məğlubiyyət, top fərqi 8-3.

"Neftçi" noyabrda evdə keçirdiyi derbilərdə daha üstün olub – 3 qələbə, 2 heç-heçə, 1 məğlubiyyət, top fərqi 4-6. "Qarabağ" evdə və noyabrda yeganə qələbəsini 1997-ci ildə qazanıb – "Qarabağ" – "Neftçi" – 1:0 (22.11.1997). Rəqiblər ilk dəfə 1997-ci (22.11.1997. "Qarabağ" – "Neftçi" – 1:0), sonuncu dəfə isə 2020-ci ildə (08.11.2020. "Neftçi" – "Qarabağ" – 0:6) noyabrda qarşılaşıb. "Qarabağ" və "Neftçi" komandaları arasında keçiriləcək turun mərkəzi qarşılaşması FIFA referisi Elçin Məsiyevə həvalə olunub.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Rəqəmsal depozitin hansı riskləri var?




***Son dövrlərdə Azərbaycanda bank kartları ilə bağlı problemlər artmaqdadır. Kartlardan icazəsiz pul çıxarılması, mobil bank tətbiqlərinin işləməməsi, dələduzluq hallarının çoxalması və xidmət səviyyəsinin aşağı düşməsi əhali üçün ciddi narahatlıq yaradır. İnsanlar bank kartlarından istifadə zamanı müxtəlif problemlərlə qarşılaşır, dələduzluq sxemləri isə getdikcə daha da mürəkkəbləşir. Bu hadisələr fonunda tətbiq istifadəçiləri rəqəmsal depozitdən istifadədən də çəkinir.***

## EKSPERT AÇIQLADI

Məsələ ilə bağlı iqtisadçı Vüqar Bayramov SİA-ya açıqlamasında bildirib ki, bütövlükdə hesablar, eləcə də bank kartlarına haker hücumlarının sayında artımlar var: "Təbii ki, bu baxımdan çox vacib məqamlardan biri məhz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə bağlıdır. Çünki təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə ehtiyac var ki, biz plastik kartlardan vəsait oğurlanmasının qarşısını müşahidə etməyək. Ona görə bir tərəfdən, təbii ki, bu sahədə bir mənalı şəkildə təhlükəsizlik texnologiyalarının gücləndirilməsinə ehtiyac var. Digər tərəfdən də çox vacib məqamlardan biri məhz vətəndaşlarımızın da diqqətli olmasıdır. Çünki bəzi hallarda vətəndaşlarımıza gələn zənglər nəticəsində onlar banklarla bağlı öz məlumatlarını üçüncü şəxslərlə bölüşürlər. Bir mənalı şəkildə belə məlumatların paylaşılmasına imkan verilməməlidir. Çünki bu cür məlumatların bölüşdürülməsi hakerlər və dələduzluqla məşğul olan şəxslər tərəfindən bank hesablarından vəsaitin oğurlanmasına gətirib çıxarır. Ona görə də həm nəzarətin gücləndirilməsi, təhlükəsizlik texnologiyalarının imkanlarının genişləndirilməsi, həm də vətəndaşlarımızın bu məsələdə daha diqqətli olması vacibdir."

***Arzu Qurbanlı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**